### ANTİ-AZƏRBAYCAN DAİRƏLƏR TƏRƏFİNDƏN ÖLKƏMİZƏ QARŞI APARILAN "QARA PİAR" KAMPANİYASI HEÇ BİR NƏTİCƏ VERMƏYƏCƏK

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan güclü, nüfuzlu ölkə kimi tanınır. Şübhəsiz ki, ölkəmizin dinamik tərəqqisinin və sarsılmaz ictimai-siyasi sabitliyin əsasında müvəffəqiyyətlə həyata keçirilən praqmatik daxili...



Bax səh. 7

### SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQ VƏ GƏNCLƏRİN, SOSİAL MÜƏSSİSƏ SAKİNLƏRİNİN SƏRGİSİ TƏŞKİL OLUNUB

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda yerləşən "Elektra Events Hall"da nazirliyin sosial müəssisələrinin sakinlərinin, əsasən sağlamlıq imkanları məhdud uşaq və gənclərin "Bahar sevincləri" adlı sərgisi və konsert proqramı təşkil olunub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib. AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri...



Bax səh. 3




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 20 aprel 2019-cu il, şənbə / № 071 (5446). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan iqtisadi və siyasi cəhətdən tam müstəqil ölkədir



*Prezident İlham Əliyev: İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.

### Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir

...Öncə onu qeyd edim ki, son bir ildə Prezident İlham Əliyev tərəfindən görülən işlər, ölkəmizin davamlı inkişafı, vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində atılan addımlar göstərdi ki, ötən il aprelin 11-də keçirilən seçkilərdə Azərbaycan xalqının seçimi onun daha parlaq gələcəyini təmin edib. Ötən bir il Azərbaycan xalqının öz seçimində yanılmadığını, vətəndaşlarımızın siyasi şüurunun və seçmək qabiliyyətinin nə qədər yüksək olduğunu bir daha sübut etdi. Məhz cənab İlham Əliyevin cari prezidentlik dövrünün ilk ili ərzində də Azərbaycan öz dinamik inkişafını təmin edib və xalqımız əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayıb...

Bax səh. 6

### BDU-nun Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun keçirdiyi beynəlxalq konfransın əsərləri "Clarivate Analytics"də yerləşdirilib

Ötən il iyulun 11-13-də Bakıda keçirilmiş VI Beynəlxalq "Sənaye Tətbiqli İdarəetmə və Optimallaşdırma" (COIA-2018) konfransının əsərləri dünyanın ən böyük elmi-analitik informasiya bazalarından olan...




Bax səh. 8



### SANKT-PETERBURQDA MDB PARLAMENT ASSAMBLEYASININ 49-CU PLENAR İCLASI KEÇİRİLİB

Aprelin 19-da Sankt-Peterburqda MDB Parlament Assambleyasının 49-cu plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycanı tədbirdə Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti təmsil edib. İclasda MDB PA-nın parlament nümayəndə heyətləri...

Bax səh. 3

### DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ AĞCABƏDİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 24-də Ağcabədi, Tərtər, Ağdam və Laçın rayonlarının sakinlərini qəbul edəcək.

Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbul Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının inzibati binasında (Ağcabədi şəhəri, H.Əliyev prospekti, 213A) saat 11:00-da keçiriləcək.

Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

DQİDK-nın bölgə şöbə müdiri: Əlizadə Nəcəfov. Əlaqə vasitələri: mob: (050) 315-53-52, telefon: 021 275-52-00. Elektron poçt ünvanları: chairman@scwra.gov.az, info@scwra.gov.az, dk-agcabedi@scwra.gov.az.



### BAKIDA "QƏDİM MƏTNLƏR VƏ KLASSİK MƏNBƏLƏR ERMƏNİÇİLİK SAXTAKARLIQLARINI VƏ UYDURMALARINI İFŞA EDİR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Aprelin 19-da Bakıda 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını...

Bax səh. 4

### Azərbaycanın regionlarında əhalinin su təchizatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır

Ölkəmizdə geniş vüsət alan müasir infrastruktur quruculuğu həmçinin regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi baxımından böyük əhəmiyyət daşıyan su və kanalizasiya təchizatı sisteminin yenilənməsini də əhatə edir. Son illərdə respublikanın bölgələrində Prezident İlham Əliyevin Azərbaycan vətəndaşlarının fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq bir sıra mühüm layihələr icra edilib. O cümlədən reallaşdırılan içməli su layihələri çərçivəsində məhsuldarlığı sutkada 1,6 milyon kubmetrdən çox olan 39 yeni içməli su mənbəyi istismara verilib. Oğuz-Qəbələ-Bakı su kəməri, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi, Mingəçevir, Quba, Xanbulan sutəmizləyici, Külüllü, Qızılqaya, Göygöl suqəbulедici qurğuları...

Bax səh. 8

### Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi ABŞ-Azərbaycan Ticarət Palatasının üzvləri ilə görüşüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi Emin Hüseynov...



Bax səh. 2

### Azərbaycandakı diplomatik nümayəndəliklərin rəhbərləri Şamaxıya səfər ediblər

Xarici ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin rəhbərləri Prezident Administrasiyasının, Xarici İşlər Nazirliyinin və...



Bax səh. 3

### Vyetnamın Baş naziri OANA İcraiyyə Komitəsi iclasının bir qrup iştirakçısını qəbul edib

Aprelin 19-da Vyetnam Sosialist Respublikasının Baş naziri Nguyen Xuan Phuk AZƏRTAC-ın sədrlik etdiyi Asiya və Sakit Okean Ölkələri İnformasiya...



Bax səh. 6

### Masallıda "Milli aktyorluq məktəbi" mövzusunda keçirilən mühazirə maraqla qarşılanıb

Aprelin 19-da Masallı şəhəri "ASAN həyat" kompleksindəki Heydər Əliyev İncəsənət Məktəbində Heydər Əliyev Mərkəzi və "Regional İnkişaf" İctimai Birliyinin...



Bax səh. 3

# Azərbaycan iqtisadi və siyasi cəhətdən tam müstəqil ölkədir

***Prezident İlham Əliyev:** İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək*

*Hazırda Azərbaycan bütün dünyada güclü dayaqlara malik olan ölkə kimi tanınır. Respublikamızın həyatı bütün istiqamətlərdə müsbət reallıqlarla səciyyələnir. Belə ki, ölkə boyu tarazlı inkişaf təmin edilir, hər yerdə genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirilir. Uğurla reallaşdırılan böyük investisiya tutumlu layihələr hesabına bu gün Azərbaycan güclü infrastruktur təminatına malik ölkəyə çevrilib. Yeni çəkilən rahat yollar, qazlaşdırmanın ən ucqar dağ kəndlərini belə əhatə etməsi, generasiya gücələrinin artırılması, içməli və suvarma suyu ilə təminatın yüksək səviyyəyə qaldırılması, müasir standartlar səviyyəsində tikilən sosial təyinatlı obyektlərin əhalinin istifadəsinə verilməsi, həmçinin insanların gəlir imkanlarının artırılması ölkədə vətəndaş məmnunluğunu təmin edir.*



Beləliklə, qısa müstəqillik tarixində Azərbaycan Cənubi Qafqazın lider dövləti səviyyəsinə yüksəlib. Regionda reallaşdırılan bütün irimiqyaslı enerji, nəqliyyat layihələrinin moderatoru rolunda məhz respublikamız çıxış edir. Azərbaycanın timsalında diqqəti çəkən əsas məqam isə ondan ibarətdir ki, ölkəmiz özünün inamlı inkişafını sırf daxili imkanlar hesabına təmin edir. Prezident İlham Əliyev bir qədər bundan əvvəl Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin açılışından sonra məcburi köçkünlərlə keçirdiyi görüşdəki çıxışında diqqəti respublikamızı fərqləndirən bu amilə çəkərək deyib: **"Azərbaycan iqtisadi və əlbəttə, siyasi cəhətdən tam müstəqil ölkədir"**.

### GÜCLÜ İQTİSADİYYAT AZƏRBAYCANIN İNAMLI İNKİŞAFININ TƏMƏLİNDƏ DAYANAN ƏSAS AMİLDİR

Son 15 ildə Azərbaycanın dövlət siyasətində bir qayda olaraq iqtisadi inkişafla bağlı məsələlərin prioritetliyi təmin edilib. Bunun da nəticəsi olaraq respublikamızda yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyat formalaşıb. Bu gün güclü iqtisadiyyat Azərbaycanın inamlı inkişafının təməlində dayanan əsas amil qismində çıxış edir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində vurğulayıb ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil.

Hazırda xarici mənfi təsirlərə müqavimət gücünə malik iqtisadiyyat qurulması müstəqil Azərbaycanın milli gücünü artıran fundamental amil rolunda çıxış edir. Son 15 ilin göstəriciləri ölkəmizin Prezident İlham Əliyev tərəfindən innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan strateji hədəfə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir. Məqsədyönlü yanaşmanın nəticəsidir ki, respublikamızda bazar iqtisadiyyatına transformasiya prosesi uğurla başa çatıb. 2004-cü ildən bəri bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri 3 dəfədən çox olmaqla məhz Azərbaycanda qeydə alınıb. Qürurverici haldır ki, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib.

Respublikamızda iqtisadi inkişafın yeni paradiqmaları sırasında qeyri-neft sektoru üzrə müasir sənaye quruculuğu siyasəti mühüm yer tutur. Ölkəmizdə müasir texnologiyaların tətbiqinə əsaslanan elm tutumlu qeyri-neft sənayesinin geniş inkişaf perspektivləri var. 2014-cü ilin dekabrında təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, hazırda paytaxt Bakıda və regionlarda yeni sənaye müəssisələri yaradılır, paralel şəkildə Pirallahıda, Sumqayıtda, Mingəçevirdə və digər ünvanlarda sənaye parkları formalaşdırılır. Ölkəmizin qısa müddətdə orbitə üç peyk çıxararaq dünya kosmos ailəsinin üzvünə çevrilməsi qürurverici haldır.

Son bir ildə istifadəyə verilən bir sıra nəhəng istehsalatlar milli iqtisadiyyatımızın gücünü daha da artırıb. Respublikamızda 2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə "SOCAR Polymer" layihəsi çərçivəsində inşa olunan polipropilen zavodunun açılışı olub. 2019-cu il fevralın 18-də isə Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən daha bir nəhəng sənaye müəssisəsi - yüksəksıxlıqlı polietilen zavodu Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. İlkin mərhələdə "SOCAR Polymer" zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. SOCAR-ın yeni sənaye kompleksi daxili bazarın tələbatını tam ödəyəcək və məhsulun izafi qalan 75 faizini Türkiyə və Avropa bazarlarına ixrac edəcək.

Sumqayıt Kimya Sənaye Parkının ərazisində 2019-cu ilin yanvar ayında istifadəyə verilən "SOCAR karbamid" zavodunun istehsala başlaması isə ölkəmizdə azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, bununla da ölkənin xarici valyuta xərcləri azalacaq. Zavod ildə 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək.

Azərbaycanın iqtisadi potensialının davamlı olaraq artmasında qeyri-neft sektorunun mühüm bir qolu kimi aqrar sektorun rolunu xüsusi qeyd etmək lazımdır. Son illərdə ölkə miqyasında böyük potensiala malik aqrar sektor yeni yanaşmalar əsasında inkişaf etdirilir, burada əmək tutumu böyük, gəlir imkanları geniş olan bitkilərin becərilməsi diqqət mərkəzində saxlanılır.

Həyata keçirilən bu kimi tədbirlərin nəticəsidir ki, ötən 15 ildə respublikamızda qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb.

Əlamətdar haldır ki, milli iqtisadiyyatımız qlobal böhranın mənfi təsirlərini uğurla dəf etməyə nail olub. 2019-cu ilin əvvəlindən bəri əldə olunan göstəricilər deyilənləri bir daha təsdiqləyir. Respublikamızda son dövrlərin ən yaxşı iqtisadi inkişaf göstəriciləri məhz cari ilin araxada qalan aylarında əldə olunub. Cari ilin ilk iki ayında Azərbaycanın ixracı 3,2 milyard ABŞ dolları təşkil edib. Bu müddətdə qeyri-neft sektoru üzrə ixrac 282 milyon dollar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə ixrac 40 milyon dollar və ya 16,5 faiz artıb. Prezident İlham Əliyev Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün yeni yaşayış kompleksinin açılışından sonra məcburi köçkünlərlə keçirdiyi görüşdəki çıxışında ölkəmizdə 2019-cu ilin ilk aylarında əldə olunan müsbət iqtisadi göstəricilərdən məmnunluğunu bildirərək deyib: **"Keçən il artıq iqtisadi inkişaf başlamışdır, bu ilin iki ayının yekunları var. Bu yekunlar çox müsbətdir, iqtisadi artım kifayət qədər yüksəkdir, 3 faizə yaxındır. Qeyri-neft sektorunda sənaye istehsalı 15 faizdən çox artıbdır"**.

### AZƏRBAYCAN DÜNYADA MÜSTƏQİL SİYASƏT APARAN ÖLKƏ KİMİ TANINIR

Məqsədyönlü siyasət sayəsində Azərbaycan iqtisadiyyatının güclənməsi və maliyyə imkanlarının artması ölkəmizin özünəinam hissini artırır. Biz iqtisadi tənəzzülün, maliyyə çatışmazlığının acı fəsadlarını forpost dövlətə çevrilən Ermənistanın timsalında açıq şəkildə görürük. Bütünlüklə dalana dirənən, ianələr hesabına yaşayan Ermənistanın heç bir iqtisadi perspektivi yoxdur, insanlar yoxsulluq və səfalət üzündən bu ölkəni tərk edirlər. Güclü dayaqlara malik olan ölkəmiz isə sırf milli maraqlara əsaslanan siyasət həyata keçirir. Öz hesabına yaşayan respublikamız dünyada ləyaqətli ölkə kimi tanınır. Heç bir dövlət ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. **"İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək"**, - deyə Prezident İlham Əliyev Nazirlər Kabinetinin yuxarıda bəhs olunan iclasındakı nitqində vurğulayıb.

Məqsədyönlü siyasət sayəsində Cənubi Qafqaz coğrafiyasının lider dövləti səviyyəsinə yüksələn Azərbaycanın bütün dünya üçün önəmi getdikcə artır. Qısa müstəqillik tarixində respublikamızın 2011-ci ildə 155 dövlətin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi son dərəcə qürurverici haldır. Ölkəmiz geniş İslam coğrafiyasında həmrəyliyin möhkəmlənməsinə sanballı töhfələr verir, eyni zamanda, 120 dövləti birləşdirən Qoşulmama Hərəkatında uğurla təmsil olunur. 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurub və müvafiq sənədlər imzalayıb. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün çox önəmlidir.

Güclü dövlət olan Azərbaycanın milli maraqlar əsasında reallaşdırdığı xarici siyasətinin prioritetlərindən biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Respublikamızın bu məsələdə prinsipial mövqeyi ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü təmin edilməklə həllini tapmalıdır. Ötən 15 ildə Azərbaycan özünün ədalətli mövqeyinin beynəlxalq birlik tərəfindən dəstəklənməsinə nail olub. 2003-2018-ci illərdə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair ölkəmizin ədalətli yanaşmasını dəstəkləyən mühüm qərarların qəbul edilməsi deyilənlərə sübutdur. Xatırlatmaq yerinə düşər ki, son vaxtlar işğalçı Ermənistanın yeni rəhbərliyi müxtəlif saxta arqumentlər gətirərək danışıqların formatının dəyişməsinə nail olmağa çalışırdı. Azərbaycanın dövlət başçısı fəal diplomatik səylərlə Ermənistanın yeni rəhbərliyinin bu kimi səylərinin qarşısını aldı və danışıqların formatı əvvəlki çərçivədə saxlanıldı.

### YENİ LAYİHƏLƏRİN REALLAŞDIRILMASI SAYƏSİNDƏ RESPUBLİKAMIZIN MALİYYƏ İMKANLARI DAHA DA ARTACAQ

İqtisadiyyatın genişlənməsinin məntiqi nəticəsi olaraq ölkəmizin maliyyə təminatı da güclənir. Bu gün Azərbaycanın kənar maliyyə qurumlarından kreditlər götürməsinə heç bir lüzum yoxdur. Əksinə, respublikamızın imkanları o dərəcədə artıb ki, xarici ölkələrdə müxtəlif layihələrin reallaşdırılmasına böyük həcmlərdə investisiyalar yönəldir. Bunun təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, 2018-ci ildə qardaş Türkiyədə Azərbaycanın sərmayələri hesabına inşa olunan nəhəng "Star" neft emalı zavodu istifadəyə verildi. Yuxarıda bəhs olunan görüşdəki çıxışında respublikamızın maliyyə imkanlarının genişləndiyini məmnunluq hissi ilə nəzərə çatdıran Prezident İlham Əliyev **"Heç kimdən asılı deyilik, maliyyə vəziyyətimiz sabitdir, gəlirlərimiz artır, icra etdiyimiz böyük layihələr, o cümlədən Cənub Qaz Dəhlizi layihəsi yaxın gələcəkdə bizə əlavə gəlirlər gətirəcəkdir. Bu gəlirlər ədalətli şəkildə bölüşdürüləcək, bir daha demək istəyirəm ki, ilk növbədə, vətəndaşların sosial rifahına yönələcəkdir"**, - deyə vurğulayıb.

Əlamətdar haldır ki, respublikamızın böyük investisiya tutumuna malik layihələr reallaşdırması ilə paralel şəkildə valyuta ehtiyatlarımız da getdikcə artır. Təkcə ötən il Azərbaycan özünün strateji valyuta ehtiyatlarını 3 milyard dollar məbləğində artırmağa nail olub. Hazırda Azərbaycan 45 milyard dollar həcmində strateji valyuta ehtiyatlarına malikdir. Halbuki, 2004-cü ildə bu rəqəm cəmi 1,8 milyard dollar civarında idi. Respublikamızın valyuta ehtiyatları xarici borcu 4-5 dəfə üstələyir. Ölkənin xarici borcunun 2018-ci ildə 22,8 faizdən 19 faizə düşməsi çox müsbət haldır.

**Mübariz ABDULLAYEV**

# Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi ABŞ-Azərbaycan Ticarət Palatasının üzvləri ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi Emin Hüseynov ABŞ-Azərbaycan Ticarət Palatasının bəzi üzv şirkətləri və tərəfdaş təşkilatları ilə Palatanın Vaşinqton şəhərində yerləşən mənzil-qərargahında görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ABŞ-Azərbaycan Ticarət Palatasının üzv şirkətləri - John Deere, BP, CNFA, WCC International və tərəfdaş təşkilatları - İllinoys Ticarət Palatası, Xəzər Siyasət Mərkəzi (Caspian Policy Center), eləcə də Palatanın İdarə Heyətinin üzvləri və iqtisadi ekspertlər iştirak ediblər.

ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov tədbiri açaraq qonaqları salamlayıb və Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova Palata üzvləri ilə görüşdüyünə görə təşəkkür edib.

Daha sonra söz alan ABŞ-Azərbaycan Ticarət Palatasının Direktorlar Şurasının üzvü, əslən azərbaycanlı Dr. Şapur Ənsari əsas qonağı salamlayıb, ABŞ-Azərbaycan Ticarət Palatasının tarixindən, Palatanın Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərdə oynadığı roldan bəhs edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov çıxışında Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin genişləndiyini qeyd edib, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin dərinləşməsi və iqtisadi əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb. O, ABŞ-a səfəri zamanı müxtəlif institutlarla keçirdiyi görüşlər barədə məlumat verib.

Emin Hüseynov çıxışında Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün çox əlverişli şəraitin mövcudluğunu qeyd edərək ABŞ şirkətləri üçün də ölkəmizdə münbit mühitin olduğunu vurğulayıb. O, çıxışı zamanı aprelin 3-5-də Çikaqoda keçirilmiş birinci İllinoys-Azərbaycan Kənd Təsərrüfatı Forumunun Azərbaycanın ABŞ ştatları ilə iqtisadi münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyətinin olduğunu bildirib. Bu baxımdan E.Hüseynov İllinoys Ticarət Palatası və ABŞ-Azərbaycan Ticarət Palatasının birgə fəaliyyətini təqdir edib.

Azərbaycan rəsmisi iqtisadi və biznes əlaqələrinin inkişafında təhsilin xüsusi əhəmiyyətini vurğulayıb. Azərbaycanın biliyə və tədqiqatlara əsaslanan iqtisadiyyat qurduğunu bildirən natiq bu sahədə ölkəmizin ali təhsil müəssisələrinin xüsusi rol oynadığını qeyd edib. Bu xüsusda o, ADA Universitetində tədqiqatlar üçün yaradılmış şərait və bu tədqiqatların nəticələrinin real biznesə tətbiqi barədə məlumat verib və nümunələr göstərib.

Görüş sual-cavab sessiyası ilə davam edib.

YENİ AZƏRBAYCAN


# Sankt-Peterburqda MDB Parlament Assambleyasının 49-cu plenar iclası keçirilib



Aprelin 19-da Sankt-Peterburqda MDB Parlament Assambleyasının 49-cu plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanı tədbirdə Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti təmsil edib. İclasda MDB PA-nın parlament nümayəndə heyətləri, daimi komissiyalarının üzvləri, alimlər, ekspertlər iştirak ediblər.

İclası açan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko tədbirdə MDB PA-nın hüquq məsələləri, iqtisadi və maliyyə məsələləri, elm və təhsil məsələləri üzrə daimi komissiyalarının hazırladıqları 11 model qanunvericilik aktı və tövsiyələrinin nəzərdən keçiriləcəyini bildirib. Təsdiq edilmiş sənədlər MDB ölkələri milli qanunvericiliklərində istifadə olunması üçün Birlik dövlətlərinin qanunvericilik orqanlarına təqdim edilib.



Toplantı çərçivəsində təhlükəsizlik və yeni çağırışlar və təhdidlərə qarşı mübarizə birləşmiş komissiyasının, siyasi məsələlər və beynəlxalq əməkdaşlıq daimi komissiyasının, müdafiə və təhlükəsizlik daimi komissiyasının iclasları olub.

Tədbirin sonunda KİV nümayəndələri üçün mətbuat konfransı keçirilib.

# Azərbaycandakı diplomatik nümayəndəliklərin rəhbərləri Şamaxıya səfər ediblər



Xarici ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin rəhbərləri Prezident Administrasiyasının, Xarici İşlər Nazirliyinin və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə aprelin 19-da Şamaxı rayonuna səfər ediblər.

Səfərin məqsədi Şamaxı rayonunun sosial iqtisadi inkişafı, rayonda aparılan abadlıq-quruculuq işləri, o cümlədən turizm infrastrukturu ilə yaxından tanış olmaqdır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfər çərçivəsində qonaqlar əvvəlcə Şamaxının qədim yaşayış məskənlərindən olan Dəmirçi kəndinə gəliblər. Burada onları rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov qarşılayıb. Qısa görüşdən sonra diplomatik nümayəndəliklərin rəhbərləri kənddə arxeoloji muzeydə, sənətkarlıq emalatxanasında, habelə məsciddə olublar. Onlara kənddə aparılan arxeoloji tədqiqatlar, III əsrə aid aşkar olunan qəbirlər, yerli ustalar tərəfindən hazırlanan sənət nümunələri haqqında, eləcə də həyata keçirilən yenidənqurma, tikinti-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Sonra qonaqlar Şamaxı Astrofizika Rəsədxanasına gəlib, aparılan elmi tədqiqat işləri ilə maraqlanıblar.

Diplomatik korpusun rəhbərləri Şamaxı şəhəri Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurova məxsus evdə olublar. Qeyd edək ki, bu ev fevralın 5-6-da baş verən zəlzələ nəticəsində yararsız vəziyyətə düşmüşdü. Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilən operativ tədbirlər nəticəsində rayonda zəlzələdən zərərçəkən digər evlər kimi Vüqar Teyfurovun evi də yenidən tikilib. Rayon İcra Hakimiyyətin başçısı Tahir Məmmədov qonaqlara zəlzələnin nəticələri, vətəndaşlara dəyən zərərin aradan qaldırılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Sonra diplomatik korpusun rəhbərləri Azərbaycanın və Şərq memarlığının nadir incilərindən biri, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan, 743-cü ildə inşa edilən Şamaxı Cümə məscidinə gəlib, onun tarixi barədə maraqlanıblar.

Bildirilib ki, 1918-ci ildə silahlı erməni daşnak dəstələri tərəfindən törədilən mart qırğınları zamanı Şamaxıda da qanlı soyqırımı aktı həyata keçirilib. Ən böyük qırğın Cümə məscidində baş verib. Şamaxılıların Allah evi kimi məscidə sığındığını görən ermənilər burada yanğın törədərək təqribən 1700 günahsız insanı qətlə yetiriblər.

Diqqətə çatdırılıb ki, Şamaxı Cümə məscidi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir olunub. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidin açılış mərasimində iştirak edib.

Qonaqların sonuncu səfəri Meysəri şərab zavodu olub. Burada onlar zavodun fəaliyyəti, istehsal prosesləri barədə məlumatlandırılıblar.

Şamaxıya səfərdən aldığı təəssüratı AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşən Braziliyanın ölkəmizdəki səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz deyib: **"Bu səfər Azərbaycan tarixini və mədəniyyətini öyrənmək baxımından çox əhəmiyyətlidir. Şamaxıya ilk dəfədir gəlirəm. İndi mənim bu bölgə barədə çox gözəl təəssüratlarım var. Bu yerlər çox səfalıdır. İnsanları da qonaqpərvərdir. Dəmirçi kəndində mətbəxinizin zənginliyinin bir daha şahidi oldum".**

# Masallıda "Milli aktyorluq məktəbi" mövzusunda keçirilən mühazirə maraqla qarşılanıb

Aprelin 19-da Masallı şəhəri "ASAN həyat" kompleksindəki Heydər Əliyev İncəsənət Məktəbində Heydər Əliyev Mərkəzi və "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı ilə "Milli aktyorluq məktəbi" mövzusunda mühazirə keçirilib.




AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqili teatr aktyoru" kafedrasının müdiri, professor, "Şöhrət" ordenli, Xalq artisti İlham Namiq Kamalın mövzu ilə bağlı məruzəsi dinlənilib.

Dünyanın zəngin tarixi-mədəniyyət irsinə malik olan Azərbaycanın meydan teatrının iki mindən çox yaşı olduğunu vurğulayan məruzəçi mərasim, şənlik, əyləncəli səhnə oyun tamaşalarının böyük bir qisminin bu günə qədər gəlib çıxdığını, Kosa, Keçəl, keçi kimi meydan teatrı personajlarının bu gün də tamaşaçıların sevimli obrazları olduğunu bildirib.

Qeyd edilib ki, Azərbaycan milli peşəkar teatrı 1873-cü il martın 10-da Bakıda Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının tamaşası ilə təşəkkül tapıb. Bu tarixdən başlayaraq Naxçıvan, Gəncə, Şamaxı, Şuşa, Şəki, Lənkəran, Ağdam, Quba və Füzulidə peşəkar teatrlar yaradılıb. Bu teatrlarda "Müsəlman artistləri dəstəsi", "Nicat", "Səfa", "İbrət" və neçə-neçə belə truppalar fəaliyyət göstərib. Həmin truppalarda, sözün həqiqi mənasında, fədakar sənət vurğunları çalışıblar. Bu sənətkarlardan Abbas Mirzə Şərifzadə, Sidqi Ruhulla, Mərziyə Davudova, Cahangir Zeynalov, Ülvi Rəcəb, Mirzə Ağayev, Mövsüm Sənani, Hökumə Qurbanova, Ağahüseyn Cavadov, Barat Şəkinskaya, Əliağa Ağayev, Nəsibə Zeynalova, Ağasadıq Gəraybəyli və başqalarının adları Azərbaycanın teatr salnaməsinə qızıl hərflərlə yazılıb.

Diqqətə çatdırılıb ki, bu gün Azərbaycanda geniş teatr şəbəkəsi fəaliyyət göstərir. Onların böyük əksəriyyətinə dövlət statusu verilib. Milli teatrla yanaşı, Bakıda rus, Qaxda gürcü, Qusarda ləzgi teatrları da fəaliyyət göstərir. Bu günlərdə Akademik Milli Dram Teatrı ilə yanaşı, dövlət tərəfindən Musiqili və Rus Dram teatrlarına da akademik status verilib. Teatrlarda minlərlə aktyor, aktrisa, rejissor, teatr rəssamı, bəstəkar və digər yaradıcı peşə sahibləri çalışırlar. Burada yetişən dünya şöhrətli sənətkarlar bu gün xalqımızın mənəvi sərvəti sayılırlar.

Tədbirdə Xalq artisti İlham Namiq Kamalın çəkildiyi filmlərdən, eyni zamanda, mühazirə Xalq artisti Nəsibə Zeynalovanın ad günü ərəfəsinə təsadüf etdiyindən Nəsibə Zeynalovanın "Qayınana" filmində, "Mozalan" telejurnalında rol aldığı səhnələrdən fraqmentlər nümayiş etdirilib.

# Sağlamlıq imkanları məhdud uşaq və gənclərin, sosial müəssisə sakinlərinin sərgisi təşkil olunub



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda yerləşən "Elektra Events Hall"da nazirliyin sosial müəssisələrinin sakinlərinin, əsasən sağlamlıq imkanları məhdud uşaq və gənclərin "Bahar sevincləri" adlı sərgisi və konsert proqramı təşkil olunub.



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev belə bir sərginin nazirlik tərəfindən son bir il ərzində artıq üçüncü dəfə keçirildiyini bildirib. O, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaq və gənclərin reabilitasiya və cəmiyyətə inteqrasiya imkanlarının artırılması istiqamətində tədbirlərin ildən-ilə genişləndirildiyini vurğulayıb. Nazir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu sahədə xüsusi dəstəyini qeyd edib, Fondun həssas qruplardan olan insanların qayğı ilə və reabilitasiya tədbirləri ilə əhatə olunmasında yaxından iştirak etdiyini bildirib. S.Babayev nazirliyin sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində nümunəvi yaşayış və reabilitasiya şəraitinin yaradılmasının da Heydər Əliyev Fondunun müvafiq proqramı çərçivəsində reallaşdığını diqqətə çatdırıb.






"Bahar sevincləri" şənliyində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən sosial müəssisə sakinləri, ictimai birliklər, nazirliyin himayəsində olan inklüziv teatr və yaradıcılıq birlikləri öz yaradıcılıq bacarıqlarını nümayiş etdiriblər.




Leyla Əliyeva sağlamlıq imkanları məhdud uşaq və gənclərin, sosial müəssisə sakinlərinin əl işlərindən ibarət sərgiyə baxıb. Rəssamlıq, bədii oyma, toxuculuq növləri üzrə təqdim olunan əl işlərində müəlliflərin həyata nikbin baxışları, arzu və düşüncələri, Vətənə sevgi hissləri, Azərbaycan təbiətinin gözəllikləri, zəngin milli-mənəvi dəyərlərimiz ifadə olunub.

Qeyd edilib ki, hər bir sosial müəssisədə sakinlərin yaradıcılıq meyilləri nəzərə alınmaqla müxtəlif dərnəklər, təlim kursları təşkil olunub, onların müvafiq incəsənət sahələrində bacarıq və qabiliyyətləri inkişaf etdirilir. Həmçinin musiqi və rəqs təlimi kursları təşkil olunub, əlilliyi olan şəxslərdən ibarət musiqi və rəqs kollektivi yaradılıb, onlar üçün xüsusi rəqs və səhnə geyimləri və musiqi repertuarları hazırlanıb. Sosial müəssisələrdən və sığınacaqlardan olan uşaq və yeniyetmələr üçün mütəmadi olaraq xüsusi ekskursiyalar və təlim kursları təşkil edilir, onların düzgün tərbiyəsi, mənəvi inkişafı və cəmiyyətə inteqrasiyası üçün məqsədyönlü strategiya həyata keçirilir.

Əl işlərinin müəllifləri ilə söhbət edən Leyla Əliyeva onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Milli kulinariya guşəsində uşaqlar qutab bişirmə, yuxa yayma, düşbərə bükmə qabiliyyətlərini nümayiş etdiriblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti xalçaçılıq guşəsi ilə tanış olub, xalça toxuyan gənclərlə söhbət edib.

Sonra konsert proqramı təqdim edilib. Gözdən əlilliyi olan Gülnar Rəhimova, Seymur Əliyev və Gülnar Novruzova mahnılar ifa edib, sağlamlıq imkanları məhdud, eləcə də daun və autizm sindromlu, hemofiliyalı, danışma və eşitmə əngəlli uşaqlardan ibarət rəqs qruplarının çıxışları olub.

İdman guşəsi ilə tanış olan Leyla Əliyeva burada Boccia İdman Federasiyasının idmançıları ilə görüşüb. Azərbaycanda boccia idmanı Leyla Əliyevanın təşəbbüsü ilə yaradılaraq ildən-ilə inkişaf edib. Bu idman növü üzrə milli komandamız beynəlxalq yarışlarda artıq ilk qələbələrə imza atıb.

Əlilliyi olan şəxslər boccia, qılıncoynatma, parataekvondo, oxatma, güllə atıcılığı növlərində öz məharətlərini göstəriblər.

Leyla Əliyeva idmançılara yeni-yeni uğurlar arzulayıb.



# Bakıda “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir” mövzusunda konfrans keçirilib







Aprelin 19-da Bakıda 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransı açan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov bütün dünyada qeyd olunan Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü və 26 aprel - Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Beynəlxalq Əqli Mülkiyyət Gününün əhəmiyyətindən danışaraq deyib ki, bu günlərdə keçirilən müxtəlif tədbirlər, görüşlər, dəyirmi masalar, konfrans və simpoziumların əsas məqsədi əqli mülkiyyət, müəllif-hüquq mədəniyyətinin formalaşdırılmasına dəstək verməkdən, biliklər cəmiyyətində əqli mülkiyyətin kreativlik və yenilikçilik amillərinin stimullaşdırılmasında əvəzedilməz əhəmiyyətini qabarıq göstərməkdən ibarətdir. Xatırladıb ki, Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ölkəmizdə 1997-ci ildən, Beynəlxalq Əqli Mülkiyyət Günü isə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi tərəfindən 2001-ci ildən başlayaraq qeyd edilir.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün builki - 24-cü ildönümü UNESCO-nun qərarı ilə ədəbiyyatın və oxunun, qiraətin xüsusi əhəmiyyətinin qeyd edilməsinə həsr olunur. Bilik amili olan kitablar insanları ümumbəşəri tarix və ortaq irs ətrafında birləşdirir. Bununla yanaşı, kitablar müxtəlif mədəniyyətlərin, identikliklərin və dillərin xüsusiyyətlərinin açılmasına xidmət edir. Bu da kitabların ikiqat əhəmiyyətini - ümumbəşəri mədəniyyətin və mədəni müxtəlifliyin daşıyıcısı olduğunu göstərir. Azərbaycanın yeniləşdiyini, qüdrətləndiyini, ölkəmizin nüfuzunun beynəlxalq miqyasda artdığını qeyd edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov deyib: “Prezident İlham Əliyevin iqtisadi islahatlar konsepsiyası yeni uğurlu nəticələr verir, Azərbaycan iqtisadiyyatında artım nümayiş olunur, 2019-cu ilin iki ayının nəticələri, cari ilin yanvar-fevral aylarındakı ÜDM-in nəticələri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur, sənayenin isə qeyri-neft sektorundakı artımı 15,5 faizdir və dünya rekordu səviyyəsindədir. Bütün bunlar əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində inqilabi addımlarla müşahidə olunur. Minimum əməkhaqqının, əmək pensiyalarının, bütün növ sosial müavinətlərin, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması və dövlət başçısı tərəfindən atılan digər addımlar böyük rəğbətlə qarşılanır. Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə xalqa təbrikindəki sözlərlə desək, **“bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha geniş miqyasda öz həllini tapacaqdır...”.**

Kamran İmanov qeyd edib ki, xalqımız dövlət başçısının yürütdüyü siyasətə böyük dəstək verir. Fransanın “Opinion Way” şirkətinin sorğusunun nəticələri göstərir ki, vətəndaşların 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanmasını Prezident İlham Əliyevin siyasətinin uğurlu nəticəsi kimi dəyərləndirir, 85,1 faizi isə son bir ildə görülən işlərə müsbət qiymət verir.

Dünya Bankının “Doing Business-2019” hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci yerə yüksəlib, 10 ən islahatçı dövlət sırasında olması heç də təsadüfi deyil. Bir sözlə, dövlət başçısının verdiyi mühüm qərarlar Azərbaycanın inkişafında yeni mərhələnin başlanğıcıdır.

Gələcəyi olmayan Ermənistan isə keçmişi, özü də mifomaniyadan gələn keçmişi ilə yaşayır. Uydurma keçmişi “canlandırmaq” məqsədilə özlərini Cənubi Qafqazın avtoxton sakinləri qismində dünyaya təqdim etmək üçün terroru və terrorçuları da dəstəkləyir, istənilən saxtakarlıqlara, sağlam məntiqdən uzaq olan uydurmaya da gedirlər. Tanınmış Rusiya tarixçisi və politoloqu, bugünkü konfransımızın qonağı Oleq Kuznetsovun sözləri ilə desək, **“... cahillik, naşılıq ... istənilən erməni humanitar fikrinin vizit kartıdır. Buna görə də Ermənistanda müasir elmi biliyə yox, aşkar nasist Tsexakron [Njde] nəzəriyyəsinin tövsiyələrinə uyğun olaraq, yaşamağa üstünlük verilir”.**





Ənənəvi olaraq Ümumdünya Kitab və Müəlliflik Hüququna həsr olunan konfransın “Qədim mətnlər və klassik mənbələr erməniçilik uydurmalarını ifşa edir” devizi altında keçirildiyini qeyd edən Kamran İmanov tarixə aid yalanlarla dolu müasir erməni müəlliflərinin kitablarının çoxsaylı olduğu halda, bunların bir-birinə istinadən, həqiqətə uyğun olmayan “faktları” tirajladığını və bununla “ermənisayağı mənbə”, yəni “dəlillər” sistemi yaratmaqda olduğunu bildirərək deyib: **“O ki qaldı, böyük həvəslə istinad edilən qədim erməni mətnlərinə, onların əlyazmaları, orijinalları adətən tapılmır, yaxud qat-qat sonrakı köçürmələr şəklində əksini tapmış olur. Bunların kökündə erməniçilik saxtakarlığı dayanır. Lakin məşhur Servantes demişkən, don bəzəyər də, ifşa edər də. Bir misaldan başlayaq. Dünyanın ən zəngin arxivlərindən biri sayılan Sankt-Peterburq arxivində qədim erməni müəlliflərinin manuskriptlərinin tapılması müşkül bir işdir. 2003-cü ildə Sankt-Peterburqun 300 illiyinə həsr olunmuş “Sokrovişa akademiçeskix sobraniy Sankt-Peterburqa” kitabı çapdan çıxmışdı və kitabın tərtibatçı kollektivinin rəhbəri, milliyyətcə erməni olan professor Yuriy Petrosyanın yazdığı kimi, minlərlə nüsxədə qorunub saxlanan erməni əlyazmaları çərçivəsində bir dənə də orijinal yoxdur, əksəriyyəti, 80 faizə qədəri XVII-XVIII əsrlərə aid köçürmələrdir, bir neçəsi XIV-XV əsrlərdə köçürülənlərdir və bəlkə də onlardan birini XII əsrə aid etmək mümkündür. Erməni aliminin digər etirafına əsasən, bu arxivdə VII-XI əsrlərə aid olan türk orijinallarının sayı isə minlərlədir”.**

Bu mövzuya toxunan Kamran İmanov, ilk növbədə, M.Xorenski (Movses Xorenatsi) haqqında fikirlərini də söyləyib. Qeyd edib ki, erməni tarixinin xrestomatiyasına çevrilən, erməni istorioqrafiyası tərəfindən danılmaz həqiqət kimi qəbul edilən və bizim eranın V əsrinə aid edilən, “erməni tarixinin atası” sayılan M.Xorenskinin “Haylar tarixi”nin uydurma nöqteyi-nəzərindən maraqlı tarixçəsi var. Bu əsərə aid fırıldaqlar və saxtakarlıqlar kitabın adı, yazıldığı tarix, müəllifliyi, hətta tərcüməsi ilə də bağlıdır. Yazının orijinalı yoxdur və hansı dildə yazılıb - siro-aramey, yunan və ya qrabar, bəlli deyil. Yazıya istinadlar əsasən müasir erməni müəlliflərinə məxsusdur, özü də X əsrə qədər hay istorioqrafiyasında Xorenskinin adı çəkilmir.

Bir sıra alimlərin fikrincə, Xorenski adı altında anonim keşiş tarixçisi çıxış edir, çünki onun tərcümeyi-halı naməlum, saxta mənbələr əsasında yalnız 1858-ci ilin rus dilində olan nəşrində erməni mənşəli tərcüməçi N.Emin tərəfindən tərtib edilib. 1809-cu ildə rus dilinə tərcümə olunan nəşrdə (latın dilində 1736-cı ildə Londonda nəşr olunub) yazının adı “Ermənilər tarixi”nə, 1858-ci ildə isə “Armeniya tarixi”nə çevrilib və bununla da haylar - ermənilər haqqında tarix uydurulmuş Armeniya ölkəsi tarixi adına çevrilib.

Bununla belə, M.Xorenskinin ən böyük fırıldağı İncildəki təftişlər və bununla İncilin erməni variantını təqdim etməsidir. Saxtakarlığın məkrli niyyəti “Xalqlar cədvəli”ndə Hayk və Armenak fantomlarını uydurması və bu cədvəldə göstərilməyən şəcərə qollarını doldurmaqla hayları armenlərin əcdadlarına çevirmək, üstəlik sakaların, qədim türklərin soykökü ilə “qohumluq” yaratmaq idi. Nəticə etibarilə digər xalqların yaşayış ərazisinin mənimsənilməsi ilə onların tarixini də hay-ermənilər xeyrinə özününküləşdirməkdir. Bu barədə “Erməni yadelli nağılları” (Bakı, 2008), “Öz-özünü təkzib edən “erməniçiliyin müəllif hüququ” (Bakı, 2015) kitablarında da ətraflı yazılıb.

Heç də təsadüfi deyil ki, XVIII əsrin ən görkəmli tarixçilərindən olan Qibbon yazmışdır ki, **“Xorenskidən yalnız digər qədim tarixçilərdə də olanları götürmək olar...”.**

Beləliklə, erməniçiliyin ən “sanballı” tarixi yazısı nəzərəçarpan dərəcədə saxtalaşdırılmış mənbə kimi çıxış edərək, digər uydurulmuş əsərlərə “yaşıl işıq” yandırmış oldu.

Kamran İmanov qeyd edib ki, əqli oğurluq ənənəsi davam edir və folklorun bir qolu - miflərin yaradılmasında ustalıq göstərən erməniçilik digər xalqların, xüsusən də biz azərbaycanlıların maddi və qeyri-maddi irsinə, torpaqlarına və mədəniyyətinə göz dikməkdən əl çəkmir, özününküləşdirmək, mənimsəmək, əqli oğurluq, saxtakarlıq və uydurma cəhdləri ilə çantasını “zənginləşdirir”. Bunlar istər real siyasi həyatımıza, istərsə də keçmişə, tarixi hadisələrə aiddir.

Mifologiyaya əsaslanan “böyük torpaqlar” stereotipi qonşularına qarşı ərazi iddiaları, müxtəlif növ mifologemlərdən irəli gələn “böyük erməni mədəniyyəti”, “sivilizasiyanın ilk erməni ocağı” mədəni oğurluqları erməniçilik təfəkküründə “təbiilik” və “legitimlik” qazandırır. Odur ki, Azərbaycanın işğal olunmuş torpaqlarının boşaldılmasına, beynəlxalq hüquq normalarına uyğun yaşamasına məhəl qoyulmur. Azərbaycanın maddi və qeyri-maddi irsinin, mədəni ənənələrinin mənimsənilməsinə dair erməni ənənəsi davam edir. Üstəlik, erməniçilik tərəfindən hazırlanan ermənilərin “müstəsnalığı”, “əzabkeşliyi”, “xüsusi missiyası” uydurmalarından irəli gələn stereotiplər müasir erməni identikliyini formalaşdırır, yaradılmış mifologemlər erməni siyasətçilərinin, xadimlərinin, alimlərinin, hətta kütlənin mövcud olan əxlaqına təsir göstərərək, çağdaş dünya quruculuğunun təməl daşı olan beynəlxalq hüququn tanınmasında maneələr törədir.

Hər bir xalqın, o cümlədən erməni xalqının özünəməxsus tarixi var, millətin keçmişində baş verən olaylar, hadisələr, uğurlar və məğlubiyyətlər gerçəkliyin ayrılmaz bir hissəsidir. Biz erməni xalqına qarşı deyil, erməniçiliyə, sağlam olmayan dünyagörüşünü dəstəkləyən bədnam qonşularımızın millətçi müəllifləri, ya da sifarişlə tutulmuş muzdlu xaricilər tərəfindən yazılan yalan, uydurma və böhtanlarla dolu kitablara və digər yazılara qarşı çıxış edirik. Xüsusən tarixşünaslığa aid bu növ əsərlərdə əsas leytmotiv ermənilərin Cənubi Qafqazda gəlmə yox, avtoxton millət olmasına və buradan guya itirilmiş torpaqlarla bağlı ərazi iddialarına qarşı çıxış edirik.

Erməni tarixinə nəzər salsaq, daim qeyd etdiyimiz kimi, millətçi hay-ermənilərin ölkə tarixini etnos tarixi ilə əvəz etməsi heç də təsadüfi deyil. Bunun səbəbi keçmişdə “Armeniya” adlı dayanıqlı siyasi anlayışın yalnız olmaması ilə bağlı deyil. Dayanıqlı coğrafi anlayış “Armeniya” heç bir vəchlə erməniçiliyin iştahasını ödəyə bilmir. Çünki bu coğrafi anlayış bir çoxlarının, o cümlədən türk etnoslarının yaşayış məkanı idi. Əgər M.Xorenskidə “Armeniya” anlayışı sayca vahidlərlə ölçülürdüsə, indiki erməni müəlliflərin “Armeniya”larının sayı onlarcadır, o cümlədən ağızdolu söylədikləri “erməni dövlətçiliyinin Eçmiədzin dövrü” adlanan “Şərqi Armeniya” da işlənilir. Aydındır ki, burada erməni dövlətçiliyinin məskəninə çevrilmiş Azərbaycanın tarixi torpaqlarından, Qərbi Azərbaycandan söhbət gedir. Millətçi erməni müəlliflərin yazılarında miqrant olan ermənilərin yaşadıqları bütün torpaqlarda avtoxton, aborigen olduqları haqqında iddialar irəli sürülür. Odur ki, hay-erməni köçmələrinin tranzit olduqları ərazilərin tarixini yazmalı olurlar və belə tarixə miqrasiya nəticəsində yaşadıqları bütün coğrafi məkanları da daxil edirlər. Elə buna görə yazdıqları tarix “Armeniya tarixi” kimi qələmə verilmir, “Erməni xalqının tarixi” kimi də təqdim olunur.

Lakin erməniçilik bir şeyi unudur. Bu növ tarixi gəlmə etnosun xələfləri - törəmələri - alloxtonlar yazmış olurlar, halbuki ərazidə köklü yaşayanlar - avtoxtonlar yaşadıqları ərazini tarixi Vətəni, doğma yurdu, əcdadlarının məkanı kimi təsvir edərək, ölkə tarixini yazırlar.

Eduard Errionun sözlərinə görə, “ənənə keçmişin uğurları, tərəqqisi deməkdir, bu günün tərəqqisi isə zaman keçdikcə sabahın, gələcəyin ənənəsinə çevrilir”. Bu, həqiqətən belədir, lakin bu məşhur sözlərin Azərbaycanın mədəni ənənələrinin mənimsənilməsinə dair erməni ənənəsinə aidiyyəti yoxdur.

M.Xorenskidən başlayaraq, “əzabkeş xalqın itirilmiş əraziləri” haqqında mifologemlər erməniçiliyin qonşularının torpaqlarına ərazi iddialarının revanşist əsasını təşkil edir. Uydurulmuş “böyük Ermənistan” haqqında millətçi xülyalar isə daim öz saxta tarixinin formalaşdırılmasına və qonşularının tarixinin təhrifinə təkan verir. Söhbət açdığımız mifologemlər yalan səpələmək praqmatik funksiyası ilə yanaşı, erməniçilik aləmində daha vacib vəzifənin - növbəti mifoloji materialın yaranmasına zəmin yaratmaq məqsədini güdməkdədir.

Erməni qədim mətnlərinin bir xüsusiyyətinə diqqət yetirək.

Bəllidir ki, burada bir şablondan - “qəhrəman xristian keçmişinə malik” və “düşmənlərin əhatəsinə düşən və incidilən qədim xalq” istifadə edilir. Bu isə yazılı erməni narrativlərindən dərslik və akademik nəşrlər vasitəsilə institusional tarixə çevrilərək, erməni etnosunun kollektiv yaddaşına həkk olunur və bu da dünya etnik mənzərəsinin qavranılmasında hazırkı hay-erməni düşüncə tərzini müəyyən edir.

Tanınmış Amerika mütəxəssisi, Harvard Universitetinin professoru R.Tomsonun fikirlərinə diqqət yetirək. Erməni narrativlərini dərindən tədqiq etmiş bu alimin yazdığı kimi, **“əvvəla, erməni tarixi narrativlərinin müəllifləri, adətən, kilsə ruhaniləridir və onların yazdıqları kilsə sifarişi əsasında hazırlanıb və kilsə vasitəsilə qorunub. İkincisi, ermənilərin tarixi yazılarında hadisələrin təsviri yoxdur, onların xüsusi, seleksiyalı quruluşu təqdim edilir. Üçüncüsü, yazılar elan olunan zamandan qat-qat sonra əmələ gəlib və əsrlərboyu, XIX əsrə qədər, hay-ermənilər tərəfindən əlverişli olan əlavələr və dəyişikliklərə məruz qalıb”.**

Rusiyanın tanınmış etnoloqu V.Şnirelmanın “Voynı pamyati” adlı tədqiqatında yazdığı kimi, **“müasir hay-erməni istorioqrafiyası “şanlı keçmişin” yazılı şablon və obrazlarına əsaslanır”.**

Digər məşhur rusiyalı politoloq S.Lurye öz əsərində (“Armyanskaya politiçeskaya mifoloqiya i yeyo vliyaniye na formirovaniye vneşney politiki Armenii i naqornoqo Karabaxa”) yazır ki, ermənilərin siyasi mifologiyası **“dünya haqqındakı etnik mənzərənin bir hissəsidir, özü də, qeyd edirəm, şüursuz olan mənzərənin və etnosun gerçəkliyin, reallığın qavranılmasına və bu reallığa qarşı davranış qaydalarını müəyyən edir”.**

Bununla belə, şüursuz məhsul olan dünyanın erməni etnik mənzərəsindən fərqli olan, həm keçmişdə, həm də indiki zamanda erməni xalqının tarixi ilə bağlı yaradılan əfsanələr şüurlu halda uydurulur və konkret müəllliflərə məxsusdur, o cümlədən Qriqor Arsruni, Raffi, Leo, Mkrtıç, Xrimyan. Bu yazıçılar və publisistlər tarixi biliklərə qovuşmadan XIX əsrin axırlarında bir sıra tarixi mif və əfsanə yaradaraq, uydurma qəhrəmanlığı ön plana çəkmişlər.

Odur ki, tanınmış rusiyalı yazıçı Yuriy Pompeyevin səlis fikrincə, erməni zadəganlarının tanrı törəməli olduqları haqqında opuslar, böyük tirajlarla buraxılan uydurmaların Artaşes Arsruni kimi müəlliflərinin dərc edilməsi, Suren Ayvazyanın saxta tarixləri yer alır. Nəticədə **“etnosun kollektiv yaddaşı süni yaradılan xülyalı keçmişin qəfəsindədir, gələcək isə gələcəyin yox, əksinə, keçmişin naminə təsəvvür edilir”.** Bəli, məşhur yazıçı Flober demişkən: **“...keçmiş bizi saxlayıb buraxmır və bu səbəbə görə gerçək bizdən vaz keçir”.**

Kamran İmanov qeyd edib ki, keçmişdən gələn erməni müəllifləri Aqafangel, Yeğişe (Yelisey), Sebeosun yazdıqları, anonim “Erməni coğrafiyası”ndakı torpaq iddialarında, Eçmiədzinin yerləşdirilməsi haqqında yalan, uydurma və saxtakarlıqlar silsiləsi, bu yalanları müasir təsdiqetmə cəhdləri, o cümlədən İrəvan yaxınlığında tapılmış erməni çarlarının qəbirləri, Qarabağdakı uydurma Tiqranakert şəhərinin qalıqları haqqındakı yalanlara qarşı sübut və dəlillər əsasında həqiqətlər öz əksini tapıb. Bununla yanaşı, qədim madaların - atropatların, sakaların qədim ərazilərinin Sisakan və Suinik adlı toponimləri altında özününküləşdirmə cəhdləri, xüsusən bu toponimlərin türk mənşəyi haqqında lazımi məlumat da verilib. Nəhayət, müasir erməni tarixşünaslığındakı keçmişin və bu günün yalanlarını ört-basdır etməyə, malalamağa və “həqiqət” şəklində üzə çıxarmağa aid trend və tendensiyalara tanınmış xarici alimlərin dili ilə layiqli qiymət verilib.

Gətirilən məlumatlar araşdırmanın əsas məqsədinə - Cənubi Qafqazda ermənilərin avtoxton olmamasına və bununla bağlı Azərbaycanın Naxçıvan, Qarabağ, Zəngəzur və Göyçə mahallarının tarixi və bugünkü torpaqlarına olan iddiaların ifşa olunmasına aiddir.

Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VI qurultayında söylədiyi nitqdə qeyd etdiyi kimi: **“... biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir...”.**

Kamran İmanov konfrans iştirakçılarına milli işdə uğurlar arzulayıb.

Konfransın açılış mərasimində çıxış edən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bu tədbirin çox mühüm məsələyə həsr olunduğunu deyib. Vurğulayıb ki, Əqli Mülkiyyət Agentliyi indiyədək Azərbaycanda bir sıra beynəlxalq və respublika əhəmiyyətli konfranslar keçirib. Həmin tədbirlərdə Azərbaycan tarixi üçün ən zəruri məsələlər gündəmə çıxarılıb, müzakirələr aparılıb. Azərbaycan tarixinin saxtalaşdırılmasının qarşısının alınması üçün nəşrlər hazırlanıb. İndiyədək Azərbaycanla bağlı bir çox sahələrdə erməni oğurluğunun şahidi olduğunu və alimlərimiz tərəfindən onların ifşasının davam etdirildiyini deyən Siyavuş Novruzov erməni saxtakarlığının qarşısının alınmasında tarixi faktların önəmini vurğulayıb. Konfransda dinləniləcək məruzələrin müvafiq istiqamətdə fəaliyyət göstərmək üçün faydalı olacağını bildirib və tədbir iştirakçılarına uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov bu konfransı Azərbaycan xalqı və dövləti üçün böyük əhəmiyyətə malik tədbir kimi dəyərləndirib. Qeyd edib ki, erməni saxtakarlığı bu gün təkcə bizi deyil, dünyanı düşündürməlidir. Çünki bugünkü mürəkkəb dünyamızda ən ağrılı problemlərin kökündə erməni saxtakarlığı dayanır. Xüsusən Cənubi Qafqazın tarixi ilə bağlı bir çox məsələlərdə bu saxtakarlıq dünyada çox ağır dolaşıqlıq yaradır. Qeyd edib ki, əqli mülkiyyət məsələsi sadəcə mülkiyyət məsələsi olmayıb, bizim zəka varlığımızla bağlıdır. Bu gün Azərbaycan xalqının öz tarixinə sahib çıxdığını, milli-mənəvi dəyərləri dirçəltdiyini qeyd edən akademik konfransın mövzusunun aktuallığını vurğulayıb və Əqli Mülkiyyət Agentliyinin fəaliyyətini yüksək qiymətləndirib.

Daha sonra Kamran İmanov “Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri” mövzusunda təqdimatla çıxış edib.

Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin siyasi araşdırmalar və analitik təhlil sektorunun müdiri Fuad Axundovun “Ermənistan - nasizmin qalib gəldiyi ölkə” mövzusunda məruzəsi dinlənilib. O, Əqli Mülkiyyət Agentliyi tərəfindən indiyədək keçirilən tədbirlərin bugünkü rəqəmsal eramızda böyük əks-səda yaratdığını deyib. Erməni saxtakarlıqlarının ifşa edilməsi istiqamətində görülən işlərin müsbət nəticələr verdiyini qeyd edən Fuad Axundov, eyni zamanda, konfrans iştirakçılarını KİV-lərdə, sosial şəbəkələrdə bununla bağlı fəal olmağa çağırıb.

Rusiyalı alim və publisist, tarix elmləri doktoru, professor Oleq Kuznetsov “İkinci Dünya müharibəsi dövründə kollaboratsionizm” mövzusunda çıxış edib. Qeyd edib ki, bu cür tədbirlər həm Azərbaycan xalqı, onun özünüdərki, həm də beynəlxalq elmi ictimaiyyət üçün vacibdir. Çünki belə konfranslar, eyni zamanda, yeni məlumatların səsləndiyi, yeni tədqiqatların nəticələrinin açıqlandığı yerdir. Bunların əsasında isə günümüzün tələblərinə cavab verən ideyalar yaranır. Bu baxımdan belə tədbirlərdə iştirak etmək çox faydalıdır.

AMEA-nın Tarix İnstitutunun direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi Bəhramov “Tarixi sənədlərin və faktların saxtalaşdırılması erməni işğalına haqq qazandırmaq cəhdidir” mövzusunda məruzə edib. İnstitutda müvafiq sahədə görülən işlərdən danışan Cəbi Bəhramov konfransın əhəmiyyətini yüksək qiymətləndirib.

Konfransda, həmçinin AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri İlhami Cəfərsoy “Qədim mənbələrin saxtalaşdırılmasında erməni dəstxəti”, AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə elmlər doktoru İslam Sadıq “M.N.Saplinin “Ümumdünya sivilizasiyalar tarixi” kitabında erməni saxtakarlıqları”, BDU-nun arxeologiya və etnoqrafiya kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov “Səfəvilər dövlətinə qarşı erməni xəyanətləri”, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti Ariz Abdulləliyev “Azərbaycan musiqisinə qarşı total erməni vandalizmi”, Əqli Mülkiyyət Agentliyinin eksperti Elşad Əlili “Yervandit sülaləsinin etnik kökləri barədə”, BDU-nun Asiya və Afrika ölkələri kafedrasının dosenti Atamoğlan Məmmədli “Azərbaycan maddi mədəni abidələri erməni təcavüzündə”, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi işçisi Rauf Bəhmənli “Azərbaycan xalq rəqslərinin ermənilər tərəfindən saxtalaşdırılması və mənimsənilməsi” mövzularında məruzələrlə çıxış ediblər.

Məruzələr ətrafında müzakirələr aparılıb və konfrans öz işini başa çatdırıb.

# YAP Səbail rayon təşkilatında Könüllülər Birliyinin təqdimatı keçirilib




Aprelin 19-da Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatında Könüllülər Birliyinin təqdimatı keçirilib. Təqdimatda rayon təşkilatı Gənclər Birliyinin üzvləri və rayonda fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələri iştirak ediblər. Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev könüllülərin ölkənin ictimai-siyasi həyatındakı fəal rolundan danışıb. O, Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından söhbət açıb. Millət vəkili həmçinin gənclərə məsuliyyətli olmağı, informasiya mühitindən daha səmərəli istifadə etməyi, vətənpərvər, dövlətə sadiq olmağı tövsiyə edib. Ş.Hacıyev könüllü gənclərə öz tövsiyələrini verib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı Gənclər Birliyinin İdarə Heyətinin üzvü Yadigar Nağıyev görüləcək işlər barədə təqdimatla çıxış edib.

Sonda Könüllülər Birliyinin üzvləri öz təkliflərini səsləndiriblər.

**MÜŞFİQƏ**

# YAP Xəzər rayon təşkilatında Azərbaycan Prezidenti İlham Əliyevin növbəti dəfə dövlət başçısı seçilməsinin bir illiyi ilə əlaqədar tədbir keçirilib




Yeni Azərbaycan Partiyası (YAP) Xəzər rayon təşkilatında Xəzər rayon İcra Hakimiyyəti ilə birlikdə Azərbaycan Prezidenti İlham Əliyevin növbəti dəfə dövlət başçısı seçilməsinin bir illiyi ilə əlaqədar tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov bildirib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan son bir ildə iqtisadi, sosial, siyasi və digər sahələrdə çox mühüm nailiyyətlər əldə edib və ölkəmizin beynəlxalq aləmdə nüfuzu daha da artıb. 2018-ci ilin ən mühüm hadisəsi cənab İlham Əliyevin növbəti dəfə böyük səs çoxluğu ilə Prezident seçilməsi oldu. Azərbaycan xalqı yenidən cənab İlham Əliyevə yüksək etimad göstərdi və bir daha sabitliyə, inkişafa və tərəqqiyə səs verdi.

Tədbirdə çıxış edən Dövlət Sosial Müdafiə Fondunun Xəzər rayon şöbəsinin müdir əvəzi Malik Məmmədov qeyd edib ki, ötən ilin 11 aprelində keçirilən prezident seçkilərindən keçən bir il ərzində dövlət başçısının imzaladığı Fərman və sərəncamların mühüm bir hissəsi məhz əhalinin sosial müdafiəsinin əhəmiyyətli şəkildə gücləndirilməsi, sosial sahə üzrə müasir, şəffaf, çevik, optimal idarəçilik və xidmət mexanizmlərinin formalaşmasına istiqamətlənib. Əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatların mühüm elementlərindən biri də ölkədə sosial təminat sisteminin yenidən qurulmasıdır. Bu sistem çərçivəsində ödənilən müxtəlif növ müavinət, təqaüd və digər sosial ödənişlərin davamlı artırılması əhalinin sosial müdafiəsinin gücləndirilməsinə əsaslı töhfə verib.

YAP Xəzər rayon təşkilatının sədr müavini, millət vəkili Rauf Əliyev çıxışında bildirib ki, 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq yenidən dövlət başçısı seçilmiş cənab İlham Əliyev tərəfindən qəbul edilən qərarlar sayəsində son bir ildə ölkədə bütün sahələr üzrə inkişaf uğurla davam edib, islahatlar cəmiyyətimizin daha çox sahələrini əhatə edib. Onun sözlərinə görə, 2019-cu ilin əvvəlindən sosial-iqtisadi sferada sistemli dəyişikliklər başlanıb. Prezident İlham Əliyevin yeni islahat kursu növbəti dəfə təsdiqləyir ki, o, hər bir Azərbaycan vətəndaşının Prezidentidir.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli çıxışında bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli formalaşıb. Onun sözlərinə görə, son 1 il müddətində atılan inqilabi addımlar nəticəsində bu model daha fərqli şəkildə özünü göstərməkdədir. Xüsusilə də sosial sahədə həyata keçirilən islahatlar, verilən qərarlar, imzalanan sənədlər bunu deməyə əsas verir.

Xəzər rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov çıxış edərək bildirib ki, ötən bir il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələr daha da inkişaf edib. Onun sözlərinə görə, cənab Prezidentin diqqət və qayğısı nəticəsində Xəzər rayonu daha da inkişaf edib və rayonda bir çox sosial layihələr həyata keçirilib. Təkcə bu ilin əvvəlindən rayon ərazisində ümumi uzunluğu 50 km-dən çox küçə və yollara asfalt örtüyü çəkilib. Rayonda əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədi ilə müvafiq Dövlət proqramlarına uyğun olaraq işlər davam edir.

Daha sonra Elşən Salahov yaxın vaxtlarda rayonun qəsəbələrində həyata keçiriləcək müxtəlif sosial layihələr barədə tədbir iştirakçılarına məlumat verib.

# YAP Gənclər Birliyi tərəfindən "YAP GB K-2019" adlı kartinq yarışı keçirilib




Bu il aprelin 26-28-də Bakıda keçiriləcək "Formula 1" Avropa Qran-prisinə dəstək məqsədilə Yeni Azərbaycan Partiyası Gənclər Birliyi tərəfindən partiyanın Bakı, Sumqayıt şəhər və Abşeron rayon təşkilatlarının gənclər birlikləri arasında "YAP GB K-2019" adlı kartinq yarışı keçirilib.

Tədbirin açılışında çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Bakıda keçiriləcək "Formula 1" yarışı dünyada populyar idman tədbirlərindən biridir. Onun sözlərinə görə, bu nüfuzlu beynəlxalq idman yarışına dünyada maraq ildən-ilə artır. Bakı şəhərinin bir neçə ildir ki, "Formula 1" Avropa Qran-prisinə ev sahibliyi etdiyini deyən S.Orucov qeyd edib ki, bunun ciddi əsasları var. **"Formula 1" yarışlarının keçirilməsi üçün müəyyən şərtlər var. Azərbaycan da bu şərtlərə tam cavab verir. Bu da ondan ibarətdir ki, mötəbər idman tədbirinin keçiriləcəyi ölkədə ictimai-siyasi sabitlik olmalı, eləcə də lazımi idman standartlarına cavab verməlidir. Bilirsiniz ki, Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan sosial-iqtisadi cəhətdən dinamik inkişaf etməklə yanaşı, dünyada nüfuzlu idman ölkəsi kimi tanınır. Bu gün ölkəmizdə bütün idman strukturları mövcuddur və beynəlxalq standartlara tam cavab verir",** - deyə YAP Gənclər Birliyinin sədri vurğulayıb.

S.Orucov YAP Gənclər Birliyi tərəfindən təşkil edilmiş bu kartinq yarışının da Bakıda keçiriləcək "Formula 1" yarışına dəstək xarakteri daşıdığını diqqətə çatdırıb.

Daha sonra püşkatma keçirilib və komandalar 3 qrupda mübarizə aparıblar.

Maraqlı mübarizə şəraitində keçən yarışda birinciliyi YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin komandası qazanıb. YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin komandası 2-ci yeri, YAP Nəsimi və Xəzər rayon təşkilatı gənclər birliklərinin komandaları isə üçüncü yeri bölüşüblər.

Qaliblər kubok və diplomlarla təltif olunublar.

# Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatının Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin rayonda yerləşən abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.

Qaradağ rayon Heydər Əliyev Mərkəzində keçirilən konfransı giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov əvvəlcə respublikamızda həyata keçirilən gənclər siyasəti haqqında məlumat verib. O, Azərbaycanda gənclərin hərtərəfli inkişafı üçün geniş imkanların olduğunu söyləyib. Aydın Hüseynov həmçinin ölkəmizin və regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının gənclərlə bağlı məsələlərə çox böyük əhəmiyyət verdiyini vurğulayaraq qeyd edib ki, YAP gənclərə özlərini təsdiq etmək və inkişaf etdirmək üçün münbit platforma təklif edir. YAP-ın sıralarında birləşən vətənpərvər gənclər ordusu Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edir.

Millət vəkili A.Hüseynov Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıb. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi naminə uğurla fəaliyyət göstərir.

Daha sonra YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin sədri Ramiz Yusubov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, YAP Qaradağ rayon təşkilatının 12124 nəfər üzvü var ki, bunlardan 4282 nəfərini gənclər, 3627 nəfərini isə qadınlar təşkil edir: **"Gənc üzvlərimizin 1490 nəfəri ali, 832 nəfəri orta ixtisas, 1960 nəfəri orta təhsillidir. Gənclərin 434 nəfəri təhsil, 182 nəfəri səhiyyə, 52 nəfəri idarəetmə sahəsində, qalan üzvlər digər idarə və müəssisələrdə çalışır, onların 294 nəfəri isə tələbədir. 26 gəncimiz 23 dekabr 2014-cü ildə keçirilən bələdiyyə seçkilərində seçicilərin etimadını qazanaraq, bələdiyyə üzvü seçiliblər. Hesabat dövründə YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin sıralarına 721 nəfər qəbul olunub".**

Hesabat haqqında çıxış edən gənclər - Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Seyidməmməd Məmmədzadə, Bakı Gəmiqayırma Zavodunun meneceri Namiq Vəliyev, Ərzaq Məhsullarının Tədarükü və Təchizatı İdarəsinin mütəxəssisi Zaur Baxşəliyev, Azərbaycan Dövlət İdman Akademiyasının tələbəsi Rafail Quliyev, YAP Qaradağ rayon təşkilatı aparatının məsləhətçisi Könül Əhmədova, Bakı Dövlət Universitetinin tələbəsi Səbinə Hüseynli, Aprel döyüşlərinin iştirakçısı Həsrət Alxasov və digərləri YAP Qaradağ rayon təşkilatının ötən dövrdəki fəaliyyətini yüksək qiymətləndirərək ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurları barədə də məlumat veriblər.

Tədbirdə çıxış edən Qaradağ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Emil Abbasov da YAP Qaradağ rayon təşkilatının gənc üzvlərinin Qaradağ rayonunun və bütövlükdə ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiklərini vurğulayaraq konfransın işinə və rayon təşkilatı Gənclər Birliyinin yeni seçiləcək Şura və İdarə Heyətinin üzvlərinə uğurlar arzulayıb.

YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə isə deyib ki, Azərbaycanda dövlət gənclər siyasətinin təşəkkülü və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin bütün dövrlərində gənclərə həmişə böyük qayğı göstərib, onların hərtərəfli inkişafına xüsusi diqqət yetirib. V.Rəhimzadə ölkə gənclərinin YAP-da uğurla fəaliyyət göstərdiklərini, partiyamızın yaratdığı imkanlardan bəhrələnərək Azərbaycanın ictimai-siyasi həyatında və ölkəmizin inkişafında aktiv rol oynadıqlarını bildirib.

YAP Siyasi Şurasının üzvü, YAP Gənclər Birliyinin sədri Seymur Orucov da deyib ki, Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilir, bu istiqamətdə ardıcıl tədbirlər görülür, əhəmiyyətli nəticələr əldə olunur. Onun sözlərinə görə, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edən gənclər arasında Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri, o cümlədən YAP Qaradağ rayon təşkilatının gənc üzvləri də ilk sıralardadırlar.

Daha sonra səsvermə keçirilib. Seyidməmməd Məmmədzadə YAP Qaradağ rayon təşkiatı Gənclər Birliyinin sədri, sədrin müavinləri, 57 nəfərdən ibarət şura və 23 nəfərdən ibarət İdarə Heyətinin yeni tərkibi seçilib. Həmçinin YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr müəyyənləşib.

# YAP Qubadlı rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib




Yeni Azərbaycan Partiyası (YAP) Qubadlı rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Sumqayıt şəhərində yerləşən YAP Qubadlı rayon təşkilatının qərargahında keçirilmiş konfransda Milli Məclisin deputatı İmamverdi İsmayılov, rayon İcra Hakimiyyəti başçısının müavini, YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev, YAP Qubadlı rayon təşkilatının ərazi ilk partiya təşkilatlarının nümayəndələri, eləcə də rayonun idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə YAP Qubadlı rayon təşkilatının binasında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad ediblər. Tədbirdə çıxış edən YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev rayon təşkilatının fəaliyyəti haqqında məlumat verib. Bildirilib ki, rayon təşkilatı sıralarında 3617 üzvü birləşdirir. Bu üzvlərin 1656 nəfərini gənclər, bu gənclərin isə 684 nəfərini qadınlar təşkil edir. Təşkilatın Gənclər Birliyinin üzvlərindən 778-i ali, 431-i orta ixtisas, 342-si orta təhsillidir. Onlardan 634-ü təhsil, 70-i mədəniyyət, 121-i səhiyyə sahələrində, 202-si idarəetmə orqanlarında, 334 nəfəri isə digər idarə və müəssisələrdə çalışır.

Daha sonra geniş məruzə ilə çıxış edən YAP Qubadlı rayon təşkilatı Gənclər Birliyinin sədri Aqil Quliyev hesabat dövründə görülmüş işlərdən bəhs edib. Bildirilib ki, məcburi köçkün həyatı yaşayan Qubadlı gəncləri Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasi kursu dəstəkləyir. A.Quliyev ölkəmizdə gənclərin inkişafı ilə bağlı dövlətimizin xüsusi diqqət və qayğısından danışıb.

Çıxış edən Milli Məclisin deputatı İmamverdi İsmayılov qeyd edib ki, ölkəmizdə gənclərə göstərilən yüksək diqqət və qayğının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

Çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq Abbasov, rayon Zilanlı kənd orta məktəbinin müəllimi Sənəm Quliyeva və digər natiqlər gənclərə göstərilən diqqət və qayğıdan, onların inkişafı üçün yaradılan şəraitdən bəhs ediblər.

Daha sonra təşkilati məsələlərə baxılıb və YAP Qubadlı rayon təşkilatı Gənclər Birliyinin 12 nəfərdən ibarət şurası, 5 nəfərdən ibarət idarə heyəti seçilib. Ülvi Qasımlı YAP Qubadlı rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Bundan başqa, YAP Gənclər Birliyinin ümumrespublika konfransında iştirak edəcək nümayəndələri müəyyənləşdirilib.

Sonda rayonun ictimai-siyasi həyatında fəallığı ilə seçilən bir qrup rayon sakininə YAP Qubadlı rayon təşkilatının fəxri fərmanları təqdim olunub.

# Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir



*YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva www.yap.org.az saytına müsahibə verib:*

**- Sədaqət xanım, bildiyiniz kimi, 11 aprel tarixində cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsinin bir ili tamam oldu. Ötən bir ili necə qiymətləndirirsiniz?**

- Öncə onu qeyd edim ki, son bir ildə Prezident İlham Əliyev tərəfindən görülən işlər, ölkəmizin davamlı inkişafı, vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində atılan addımlar göstərdi ki, ötən il aprelin 11-də keçirilən seçkilərdə Azərbaycan xalqının seçimi onun daha parlaq gələcəyini təmin edib. Ötən bir il Azərbaycan xalqının öz seçimində yanılmadığını, vətəndaşlarımızın siyasi şüurunun və seçmək qabiliyyətinin nə qədər yüksək olduğunu bir daha sübut etdi. Məhz cənab İlham Əliyevin cari prezidentlik dövrünün ilk ili ərzində də Azərbaycan öz dinamik inkişafını təmin edib və xalqımız əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayıb. Lakin o da qeyd edilməlidir ki, 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76,8 faizinin səsini toplayaraq ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz ötən illərdə misilsiz inkişaf yolu keçib, tarixi uğurlara imza atıb. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət xəttini şəraitin tələblərinə uyğun olaraq yeniləşdirməklə davam etdirən Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrini əhatə edən bu dinamik inkişafa, hər bir Azərbaycan ailəsinin rifahının yaxşılaşdırılmasına və təhlükəsizliyinin təmin edilməsinə, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsinə, ölkəmizin maraqlarına cavab verən tarazlaşdırılmış xarici siyasətin yürüdülməsinə nail olub. Elə bu səbəbdən də, xalqımız ötən müddətdə əldə olunan uğurlara 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ən yüksək qiymətini verdi.

Təsadüfi deyil ki, Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları son bir ildə də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində olub. Bu müddətdə ölkəmizdə hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. Dövlətimizin başçısının seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilir. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyev xalq ilə daim təmasda olur, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyir və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verir.

**- Eyni kontekstdən çıxış edərək cənab Prezident İlham Əliyevin imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara xüsusi diqqət çəkmək istərdik. Məhz sözügedən Prezident qərarlarının insanların həyatına, rifah halının yüksəldilməsinə təsirini necə dəyərləndirirsiniz?**

- Ümumiyyətlə, Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-günə genişlənir. Təsadüfi deyildir ki, seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub. Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə ötən bir il ərzində minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı. Cənab İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər, təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Bu ilin fevral ayının sonlarında imzalanan Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırıldı ki, bu da minlərlə məcburi köçkünün rifah halının yüksəldilməsinə xidmət edir. Həmçinin bu il 110 minədək tələbənin də təqaüdlərinin ciddi şəkildə artırılması təmin olundu. Azərbaycan Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini, daim hər bir vətəndaşının yanında olduğunu təsdiqləyən digər bir addım isə 800 mindən çox insanın problemli kredit məsələsini aradan qaldıracaq Fərman oldu. Dövlətimizin başçısı tərəfindən imzalanan daha bir Fərmanla isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyi təmin olundu. Dövlət başçısı son bir neçə ayda imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara aprelin 15-də daha birini də əlavə etdi. Fərmana görə, müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin 80 manat məbləğində təqaüdü təsis olundu.

Göründüyü kimi, son bir ildə sosial sahədə atılan bu mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir. Bütün atılan addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

**- Sirr deyil ki, cənab Prezident İlham Əliyevin problemli kreditlərlə bağlı verdiyi qərar və tapşırıqlar da insanlar üçün çox əhəmiyyətli hadisələrdən biri oldu. Necə düşünürsünüz, bu problemin həlli cəmiyyətimiz tərəfindən necə qarşılanır?**

- İstərdim ki, kiçik bir xatırlatma edim. Belə ki, problemli kreditlər məsələsi 2015-ci ildən güclənən qlobal miqyaslı maliyyə-iqtisadi böhranın nəticəsi olaraq meydana çıxmışdı. Ölkəmizdə baş vermiş iki devalvasiyanın yekunu olaraq dollar manatın məzənnəsinə nisbətdə yüksəldi və banklardan dollarla kredit götürmüş vətəndaşların ödəmə qabiliyyətinə mənfi təsir etdi. Amma belə bir proses təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində də müşahidə edildi.

Ötən müddət ərzində vətəndaşlarla görüşlərdə də bu problem qaldırılmışdı, insanların müraciətləri təhlil edilərək müvafiq qurumlara təkliflər göndərilmişdi, hətta Milli Məclisin plenar iclaslarında dəfələrlə səsləndirilmişdi. Yəni gördüyünüz kimi, bu problem haqqında dövlət məlumatlı olub. Deyərdim ki, hökumət bu problemin aradan qaldırılması və vətəndaşların dollar kreditləri ilə bağlı yaşadığı çətinlikləri daha tez aradan qaldırmaq niyyətində idi. Amma bilirsiniz ki, hər bir sosial qərarın arxasında ciddi maliyyə resursu dayanır.

Bu mənada təsadüfi deyil ki, böhranın nəticələrinə baxmayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan iqtisadi islahatlar tez bir zamanda səmərəsini verdi və dövlətimizin inkişafı dinamikləşdirildi, maliyyə imkanlarımız artdı. Məhz buna görə də 2019-cu ilin dövlət büdcəsi müzakirə edilərkən problemli kreditlər məsələsinin həlli, eləcə də cari ilə nəzərdə tutulmuş sosial proqramların maliyyələşdirilməsi haqqında ciddi müzakirələr aparıldı, təkliflər irəli sürüldü. Eyni zamanda, Prezident İlham Əliyev bu il yanvar ayının 11-də keçirilmiş Nazirlər Kabinetinin iclasında reallaşdırılacaq islahatlar, hətta perspektiv sosial tədbirlər haqqında da cəmiyyətimizi məlumatlandırmışdı.

Məhz ötən 2 ay ərzində Prezident İlham Əliyevin təqribən 3 milyon insanı əhatə edən və maliyyə tutumu təxminən 2.2 milyard manat olan sərəncamlar, fərmanlar imzalaması, qərarlar verməsi Azərbaycan xalqının yaşayışının, rifah halının daha da yüksəldilməsi məqsədinə xidmət edir. Elə problemli kreditlərin həlli ilə bağlı qərar da dövlətin vətəndaşlarına yüksək diqqət və qayğısının növbəti təzahürü oldu. 800 mindən çox insanı əhatə edən Prezident Fərmanı dünyada analoqu olmayan bir qərardır.

Yəni gördüyünüz kimi, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə sözün əsl mənasında inqilabi qərarlardır və Prezident İlham Əliyevin verdiyi bu qərarlar bütün dünya üçün sosial inqilab nümunəsidir.

**- Sədaqət xanım, bu məqamda istərdik ki, Nizami rayonunda "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin atdığı addımlar, sahibkarlara göstərdiyi diqqət və qayğı barədə də danışasınız...**

- Xüsusi olaraq bildirmək istəyirəm ki, Prezident İlham Əliyev ötən 16 il ərzində atdığı bütün addımları ilə hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayıb. Bədbəxt hadisələr zamanı çətin vəziyyətə düşmüş vətəndaşların yanında olan, onlara kömək edən, problemlərini həll edən Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir.

Cənab İlham Əliyev daim vətəndaşlarla ünsiyyətdədir, cənubdan şimala, qərbdən şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olur, insanların güzəranı ilə maraqlanır, problemlərinin həlli ilə bağlı yerində tapşırıqlar verir. Elə Lənkəranda bina çökəndə, Mərkəzi Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda, Ağsuda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış gördü.

Məhz biz eyni münasibəti Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar proseslərdə də gördük. Prezident İlham Əliyev yanğın baş verən gündən məsələni nəzarətinə götürdü, müşavirə keçirdi, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin təmin edilməsi üçün müvafiq komissiya yaratdı. Bütün bunlar bir daha göstərdi ki, dövlət hər zaman vətəndaşın yanındadır. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı və problemlərinin ağırlıqlarını öz çiyinlərinə götürdü. Əlbəttə ki, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin verilməsi, eyni zamanda, həyata keçirilən sosial siyasətin tərkib hissəsidir və bir daha isbatlandı ki, dövlət zərər çəkmiş sahibkarlara sahib çıxdı.

Lakin bütün bu deyilənlərlə yanaşı, "Diqlas"da yanğın ilə əlaqədar baş vermiş hadisələrdə Xalq-Prezident birliyi bu dəfə də Azərbaycan dövlətinin və xalqının düşmənlərinin planlarını pozdu. Zərər çəkmiş sahibkarların və onların ailələrinin, yaxınlarının düşdüyü çətin vəziyyətdən sui-istifadə edib mitinq keçirmək istəyən antimilli ünsürlər yenidən ifşa olundular, bir daha xalqdan ayrı olduqlarını, yalnız korporativ mənafelərini düşündüklərini və insanların taleyinin onları maraqlandırmadığını ortaya qoydular.

**- Son olaraq istərdik növbəti ildən respublika miqyasında tətbiqinə başlanacaq tibbi sığorta ilə bağlı fikirlərinizi bildirəsiniz. Tibbi sığortanın vətəndaşlarımız üçün üstünlükləri nədən ibarət olacaq?**

- Bu gün Azərbaycanda tibbi xidmət pulsuz həyata keçirilir. Dövlət xəstəxanalarında vətəndaşların qəbulu və müayinəsi tamamilə ödənişsizdir. Amma bir çox xəstəliklərdən irəli gələn əməliyyatlar və ya müalicələr var ki, onlar əsasən, özəl klinikalarda reallaşdırılır və müəyyən məbləğ tələb edir. Bu səbəbdən də, vətəndaşların tibbi sığortadan istifadəsi getdikcə günümüzün tələbinə çevrilir.

Ümumiyyətlə, tibbi sığorta insanların sağlamlığının "qızıl zəmanəti"dir. Çünki insanlar üçün hər şeydən önəmli onların səhhətidir. İnsan sağlamlığında elə problemlər yarana bilər ki, o zaman ağır əməliyyatların keçirilməsi qaçılmaz olar. Məhz sağlamlığın qorunması və insanın daim gümrah qalması üçün tibbi müayinə vacibdir. Amma bunun digər tərəflərini də mütləq nəzərə almaq lazımdır. Əgər vətəndaşlarımız tibbi sığortadan istifadə edərsə, o zaman onların hər hansı bir instansiyaya müraciət etmədən səhhətindəki problemləri aradan qaldırmasına imkanı olacaq. Deyə bilərəm ki, bəzi hallarda tibbi məsələlərlə bağlı müraciətlər bizə edilir. Amma bəzən də çox ağır və böyük miqdarda vəsait tələb edən əməliyyatlarla da bağlı vətəndaşların xahiş etdiklərinin şahidi oluruq. Əlbəttə ki, gücümüz çatan qədər həmin insanlara tibbi və hüquqi köməklik edirik. Lakin böyük miqdar tələb edən əməliyyatların keçirilməsinə kömək etmək imkansız olur. Ona görə də, insanlar ya hansısa məmura, ya da xeyriyyə təşkilatlarına müraciət edirlər. Təbii ki, bu da vaxt tələb edir, bu zaman kəsiyində isə həmin xəstələrin vəziyyəti daha da pisləşir. Bu səbəbdən də, insanlar sağlamlığı ilə əlaqədar heç bir problem yaşamaq istəmirsə, tibbi sığortadan istifadə etməlidir.

Qeyd edim ki, ötən il "Tibbi sığota haqqında" qanuna mühüm yeniliklər edildi. Və gələn ildən Azərbaycanda tam tətbiqi planlaşdırılır. Bununla da, 1999-cu ildən səhiyyəmizin gündəmində olan bir problemin həll ediləcəyi güman edilir. Bu sığorta növünün tətbiqinin yalnız səhiyyə deyil, eyni zamanda, digər sektorlara, o cümlədən əhalinin xərclərinin strukturuna da müsbət təsirləri var. İcbari sığortanın tətbiq edilməsi səhiyyənin maliyyələşdirmə bazasını dəyişməklə bu sahədəki neqativ halların azaldılmasına səbəb olacaq. Bu sistemin tətbiqi sığorta şirkətlərinin gəlirlərinin artmasına gətirib çıxaracaq. Eləcə də sözügedən islahat vətəndaşların səhiyyə xərclərinin azalması səbəbindən pullarına qənaət etməsinə və o cümlədən aztəminatlı və ya işsiz statusu olan insanların səhiyyə xidmətindən yararlanmasına imkan yaradacaq. Bir sözlə, icbari tibbi sığorta bütün vətəndaşların məcburi olaraq sığorta olunması deməkdir. Vətəndaş isə səhiyyə xidmətinə ehtiyacı olan, daha aydın desək, xəstələnən zaman sığorta sənədini göstərməklə pulsuz olaraq müalicə oluna biləcək.

# Vyetnamın Baş naziri OANA İcraiyyə Komitəsi iclasının bir qrup iştirakçısını qəbul edib



Aprelin 19-da Vyetnam Sosialist Respublikasının Baş naziri Nguyen Xuan Phuk AZƏRTAC-ın sədrlik etdiyi Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsi iclasının bir qrup iştirakçısını qəbul edib.

OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə Baş nazir təşkilatın regionun informasiya məkanında önəmini vurğulayıb. O, feyk xəbərlərin geniş yayıldığı bir dövrdə OANA-ya üzv agentliklərin etibarlı xəbər mənbəyi kimi qeyri-dürüst məlumatlarla mübarizədə böyük əhəmiyyətə malik olduğunu söyləyib və onların bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib.

Aslan Aslanov tədbirin yüksək səviyyədə təşkilinə, mehriban qonaqpərvərliyə görə Baş nazirə, Vyetnam hökumətinə və VNA agentliyinə təşəkkür edib. O bildirib ki, vaxtılə UNESCO-nun himayəsi ilə yaradılan, Asiya və Sakit okean ölkələrinin aparıcı xəbər agentliklərini öz ətrafında birləşdirən OANA onlayn xəbər axını şəraitində, feyk xəbərlərin tüğyan etdiyi bir vaxtda öz nüfuzunu ildən-ilə daha da artırır, onu daha etibarlı, jurnalistika dəyərlərini qoruyub saxlayan təşkilat kimi önə çıxarır. Üzv agentliklər arasında sıx əməkdaşlıq xalqların adət-ənənələrini bir-birinə daha yaxından tanıtmaq, Asiya və Sakit Okean ölkələrində baş verən iqtisadi, siyasi, mədəni yenilikləri dünyaya daha asan çatdırmaq üçün böyük imkanlar yaradır.



Vyetnam Xəbər Agentliyi ilə AZƏRTAC arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdıran Aslan Aslanov bu əməkdaşlığın yeni mərhələyə yüksəlməsinin Vyetnam və Azərbaycan xalqlarının obyektiv məlumatlarla operativ təmin olunmasındakı rolundan məmnunluqla söhbət açıb.

Baş nazir Nguyen Xuan Phuk Vyetnamın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini qeyd edərək, iki ölkənin münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırıb. O, Hanoy ilə Bakı arasında birbaşa aviareyslərin açılmasının mümkünlüyünü qeyd edib. Baş nazir bir vaxtlar Azərbaycanda ali təhsil alan bir çox vyetnamlının indi dövlət və hökumət qurumlarında yüksək vəzifələrdə çalışdıqlarını söyləyib, bu insanların ölkələrimiz arasında əlaqələrin daim yaxınlaşmasına öz töhfələrini verdiklərini bildirib.

Görüşdə müasir medianın inkişafı məsələləri, feyk xəbərlərlə mübarizə, innovasiyalı texnologiyalardan səmərəli istifadə yolları, qabaqcıl təcrübənin tətbiqi və digər aktual məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Hanoyda AZƏRTAC-ın sədrliyi ilə OANA İcraiyyə Komitəsinin 44-cü iclası işə başlayıb

Aprelin 19-da AZƏRTAC-ın sədrliyi və Vyetnamın VNA xəbər agentliyinin təşkilatçılığı ilə Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 44-cü iclası işə başlayıb.

AZƏRTAC xəbər verir ki, iclasda iştirak edən Vyetnamın Baş nazirinin müavini Vu Duc Dam, informasiya və kommunikasiya texnologiyaları naziri Nguyen Manh Hung və nümayəndə heyətləri OANA-nın üzv agentliklərinin təqdim etdiyi fotolardan ibarət sərgiyə baxıblar. Rəsmi qonaqlar AZƏRTAC-ın təqdim etdiyi fotolarla da maraqla tanış olublar.







İclasın açılış mərasimində Vyetnamın dövlət himni səslənib, bu ölkəyə həsr olunan videoçarx nümayiş etdirilib.

VNA agentliyinin baş direktoru Nquyen Duc Loi çıxışında OANA İcraiyyə Komitəsinin iclasının Hanoyda keçirilməsini bu təşkilatın inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirib. O, iclasın təşkilinə göstərdiyi dəstəyə görə OANA-nın sədrinə - AZƏRTAC-a təşəkkür edib.

Sonra çıxış edən Vyetnamın Baş nazirinin müavini Vu Duc Dam müasir medianın informasiya texnologiyalarının inkişafı dövründə ciddi çağırışlarla üz-üzə qaldığını qeyd edib. O deyib ki, yalnız jurnalistika dəyərlərinə söykənən media bu çağırışların öhdəsindən məharətlə gələ biləcək. Bu baxımdan OANA-nın inkişafının vacibliyini vurğulayan Baş nazirin müavini təşkilatın prezidenti Aslan Aslanovun və AZƏRTAC-ın sədr kimi bu istiqamətdə səylərinin önəmli olduğunu diqqətə çatdırıb.

OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov iştirakçıları salamlayaraq iclasın yüksək səviyyədə keçirilməsinə görə Vyetnam hökumətinə, Baş nazirin müavininə və VNA agentliyinə təşəkkürünü bildirib.

Müasir dövrdə media qurumları arasında əməkdaşlığın əhəmiyyətini qeyd edən OANA prezidenti deyib ki, Dünya Xəbər Agentlikləri Konqresi və OANA-nın sədri olaraq AZƏRTAC hər iki qurumun fəaliyyətinin daha da təkmilləşdirilməsinə öz töhfəsini verməyə çalışır. Bu baxımdan səmərəli əməkdaşlıq mexanizmləri, innovasiyalar və təcrübə mübadiləsi kimi üç amil daim diqqətdə saxlanılır.

**"Müasir yeniliklərə adaptasiya olmaq vacib amildir. Eyni zamanda, jurnalistika ənənələrini qoruyub saxlamaq da bizim peşə borcumuzdur. Onlayn media və sosial şəbəkələrin geniş yayıldığı, feyk xəbərlər kimi təhlükəli meylin gücləndiyi bir vaxtda informasiyanın düzgünlüyünü, obyektivlik və tərəfsizliyini daim yüksək tutmaq üçün mütəmadi səylər göstərməli oluruq, bu sınaqlardan birgə keçməyə çalışırıq. Regionun əsas xəbər agentliklərini birləşdirən OANA bu çağırışlara tutarlı cavab vermək üçün güclü platformaya çevrilə bilər. Bunun üçün yenilikləri gecikmədən tətbiq etmək, təşkilatı daha da müasirləşdirmək, daha çevik informasiya mübadiləsi mexanizmləri yaratmaq lazımdır",** - deyə Aslan Aslanov vurğulayıb.

Qeyd edək ki, Hanoyda işə başlayan OANA İcraiyyə Komitəsinin 44-cü iclası aprelin 20-dək davam edəcək.

İclasda Türkiyənin Anadolu, Rusiyanın TASS, Avstraliyanın AAP, Cənubi Koreyanın Yonhap, Ərəb Əmirliklərinin WAM, Çinin Sinxua, İndoneziyanın Antara, Malayziyanın Bernama, İranın İRNA, Yaponiyanın Kyodo və digər agentliklərin rəhbərləri və nümayəndələri iştirak edirlər.

OANA-nın cari məsələlərinin, media qarşısında duran çağırışların, feyk xəbərlərlə mübarizənin, faktların yoxlanması, agentliklərin üzləşdiyi problemlərin müzakirə edildiyi iclasda təşkilatın Mükəmməllik Mükafatının qalibləri elan olunacaq.

İclas işini sessiyalarla davam etdirir.

# Anti-Azərbaycan dairələr tərəfindən ölkəmizə qarşı aparılan "qara piar" kampaniyası heç bir nəticə verməyəcək

*Bu cür kampaniyalarla Azərbaycana təzyiq göstərmək, ölkəmizi öz yolundan döndərmək mümkün deyil*



Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan güclü, nüfuzlu ölkə kimi tanınır. Şübhəsiz ki, ölkəmizin dinamik tərəqqisinin və sarsılmaz ictimai-siyasi sabitliyin əsasında müvəffəqiyyətlə həyata keçirilən praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi və institusional islahatların uğurla həyata keçirilməsi, qanunvericilik bazasının mütəmadi olaraq zənginləşdirilməsi, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Bir sözlə, Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bütün sahələrdə möhtəşəm nailiyyətlərin qazanılmasını təmin edir.

## SOSİAL SAHƏDƏ HƏYATA KEÇİRİLƏN ARDICIL VƏ MƏQSƏDYÖNLÜ TƏDBİRLƏR ƏHALİNİN RİFAHININ DAHA DA YÜKSƏLMƏSİNƏ SƏBƏB OLUB

Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanın milli maraqlarına xidmət edir. Xüsusi vurğulamaq gərəkdir ki, bu siyasət nəticəsində ölkəmizin iqtisadi gücü artır, əhalinin sosial rifahı yüksəlir, Azərbaycan beynəlxalq arenada söz sahibinə çevrilir. Ən əsası, ölkəmizdə səmərəli sosial siyasət həyata keçirilir, vətəndaşlar yüksək dövlət qayğısı ilə əhatə olunublar. Bu istiqamətdə mütəmadi olaraq Fərman və sərəncamlar imzalanır, müvafiq qərarlar qəbul olunur. Yəni ölkəmizin davamlı inkişafından, iqtisadi potensialın mütəmadi surətdə genişlənməsindən bütün respublika boyu sosial infrastruktur yaradılması, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması, maddi təminatlarının möhkəmləndirilməsi məqsədilə səmərəli şəkildə istifadə olunur. Beləliklə, dövlət başçısının sosial sahədə atdığı mühüm addımlar, o cümlədən həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər əhalinin rifahının yüksəlməsinə səbəb olub.

Bütövlükdə, son 15 ildə Azərbaycanın iqtisadi cəhətdən güclü, özünü təmin edən, rəqabətədavamlı ölkəyə çevrilməsi məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin real nəticəsidir.

## MÜSTƏQİL, ÇOXVEKTORLU VƏ PRAQMATİK XARİCİ SİYASƏT HƏYATA KEÇİRƏN AZƏRBAYCAN YÜKSƏK BEYNƏLXALQ NÜFUZA MALİKDİR

Bunlarla yanaşı, milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursuna malik olan Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində mövqeyi mütəmadi olaraq möhkəmlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu və praqmatik xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Hazırda regional güc mərkəzi olan, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Öz müstəqil siyasəti ilə dünyada, beynəlxalq münasibətlər sistemində böyük nüfuz qazanan Azərbaycanın dünyanın aparıcı güc mərkəzləri, işğalçı Ermənistan istisna olmaqla, qonşu dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan sıx əməkdaşlıq əlaqələri mövcuddur, ölkəmiz bir sıra regional formatların təşəbbüskarı və fəal iştirakçısıdır. Digər tərəfdən, mühüm transmilli enerji və nəqliyyat layihələrinin reallaşdırılması ölkəmizin strateji mövqelərini daha da gücləndirib.

O da qeyd edilməlidir ki, xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürən Azərbaycan beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Təsadüfi deyil ki, ayrı-ayrı milli dövlətlər, o cümlədən dünya siyasətinin güc mərkəzləri kimi çıxış edən ölkələr Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirirlər. Eyni zamanda, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına xüsusi əhəmiyyət verilir. Bütövlükdə, dünyada böyük etimad qazanan Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Azərbaycan bir çox Avropa İttifaqı (Aİ) ölkələri ilə də strateji tərəfdaşlıq əlaqələrinə malikdir, Aİ ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sazişinin hazırlanması artıq yekun mərhələyə qədəm qoyub. Bundan başqa, beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi tanınan Azərbaycan dünyanın 120-dən artıq ölkəsini birləşdirən Qoşulmama Hərəkatına rəhbərlik edəcək.

## AZƏRBAYCAN XALQI PREZİDENT İLHAM ƏLİYEVİN MİLLİ MARAQLARA SÖYKƏNƏN SİYASƏTİNİ TAM DƏSTƏKLƏYİR

Azərbaycanı fərqləndirən mühüm səciyyəvi xüsusiyyətlərdən biri də ölkəmizdə xalq-iqtidar birliyinin hökm sürməsidir. Təsadüfi deyil ki, ictimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir. Yeri gəlmişkən, Fransanın "Opinion Way" şirkətinin bu ilin mart ayında ölkəmizdə keçirdiyi rəy sorğusu da bu reallığı təsdiqləyir. Xatırladaq ki, Azərbaycan Respublikasındakı mövcud ictimai-siyasi vəziyyətə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahatlar kursuna, hökumətin ümumi daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə "Opinion Way" şirkəti tərəfindən Naxçıvan MR istisna olmaqla Azərbaycanın bütün bölgələrində keçirilən geniş rəy sorğusunun nəticələrinə görə, respondentlərin 80,1%-i ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Sorğunun "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz?" sualına respondentlərin 85,1%-i bütövlükdə müsbət cavab verib. Əlbəttə, rəy sorğusunda əksini tapmış bu və digər məqamlar Prezident İlham Əliyevin yenə də Öz seçicilərinin yüksək etimadına malik olduğunu təsdiq edir. Başqa sözlə, sorğunun nəticələri dövlət başçısının seçicilərin etimadını artıqlaması ilə doğrultduğunu, Azərbaycan xalqının Prezident İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndirdiyini göstərir. Eyni zamanda, sözügedən sorğunun əks etdirdiyi reallıqlardan biri budur ki, Azərbaycan xalqı Prezident İlham Əliyevə böyük etimad göstərir, rəğbət bəsləyir, dövlət başçısının milli maraqlara söykənən siyasətini tam dəstəkləyir.

## AZƏRBAYCANIN PARLAQ NAİLİYYƏTLƏR QAZANMASI ERMƏNİSTANI, ERMƏNİ LOBBİSİNİ, XARİCDƏKİ BİR SIRA ANTİ-AZƏRBAYCAN DAİRƏLƏRİ CİDDİ ŞƏKİLDƏ NARAHAT EDİR

Şübhəsiz ki, mövcud vəziyyət Ermənistanı, erməni lobbisini, xaricdəki bir sıra anti-Azərbaycan dairələri ciddi şəkildə narahat edir. Azərbaycanın parlaq nailiyyətlərini qısqanclıq və narahatlıqla qarşılayan anti-Azərbaycan dairələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, bu məqsədlə müxtəlif üsul və vasitələrdən istifadə edirlər. Başqa sözlə, bu qüvvələr Azərbaycanın uğurlarına ləkə yaxmaq, onu nüfuzdan salmaq üçün zaman-zaman, xüsusilə böyük tədbirlər ərəfəsində çirkin kampaniyalar təşkil edirlər. Həmin dairələrin sifarişlərini yerinə yetirən "Transparency International", "Amnesty International", OCCRP və digər bu kimi qurumlar Azərbaycan, dövlət başçısı və Onun ailə üzvləri haqqında yalan, böhtan, dezinformasiya xarakterli məlumatlar yayır, ölkəmizi beynəlxalq qınaq obyektinə çevirməyə, ölkə daxilində "beşinci kolon" vasitəsilə ictimai narazılıq formalaşdırmağa cəhd göstərirlər.

Azərbaycanın müstəqil siyasət yürüdən güclü dövlətə çevrilməsindən, habelə qarşıdan gələn dövrdə ölkəmizin bir sıra mühüm tədbirlərə ev sahibliyi edəcəyindən, Cənub Qaz Dəhlizi layihəsinin tamamlanacağından, Azərbaycan ilə Aİ arasında strateji tərəfdaşlıq sazişinin imzalanacağından, ölkəmizin Qoşulmama Hərəkatına sədrlik edəcəyindən ciddi narahatlıq keçirən həmin qüvvələrin Azərbaycan, onun rəhbərliyinə qarşı növbəti qarayaxma kampaniyası həyata keçirəcəyi ehtimal olunur. Avropa Şurasında bu yaxınlarda qəbul olunmuş qətnamə bunu bir daha sübut edir.

Əlbəttə, Azərbaycan ictimaiyyəti, ekspertlər xaricdəki anti-Azərbaycan dairələri və daxildəki "beşinci kolon"un bu cəhdlərinin arxasında hansı maraqların durduğunu yaxşı bilirlər. Buna görə də bu cür kampaniyalarla Azərbaycana təzyiq göstərmək, onu öz yolundan döndərmək mümkün olmayıb və olmayacaq. Azərbaycan ictimaiyyəti bu qüvvələrin bütün iddialarına layiqli cavab verəcək.

**Nurlan QƏLƏNDƏRLİ**

# Leyla Abdullayeva: Ermənistan XİN-i "3+2" formatında qəbul edilmiş bəyanatlara qoşulmağa dəvət edirik



Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycan xarici işlər nazirinin erməni tərəfi və/və ya ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçiriləcək görüşlər və atılacaq addımlara dair şərhləri "3+2" formatında qəbul edilmiş birgə bəyanatlara tam uyğun olaraq edilir. Sözügedən bəyanatlar isə açıq şəkildə iki ölkə əhalisinin sülhə hazırlanması zərurətini dəstəkləyir. Ermənistan rəhbərliyi anlamalıdır ki, mövcud status-kvo qəbuledilməzdir, dayanıqlı deyildir və bu proses həmişəlik davam edə bilməz.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva KİV-lərə açıqlamasında bildirib.

Leyla Abdullayeva deyib: **"Biz Ermənistan Xarici İşlər Nazirliyini "3+2" formatında qəbul edilmiş bəyanatlara qoşulmağa və daha praqmatik olmağa, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə etimad göstərməyə və dəstək nümayiş etdirməyə dəvət edirik.**

**Əgər Ermənistan tərəfi etimad quruculuğundan və danışıqlarda səmimiyyətin yaradılmasından bəhs edirsə, o zaman Azərbaycan tərəfində olduğu kimi onlar da qarşılıqlı etimadın yaradılmasına çalışmalı və buna uyğun şərhlər verməlidirlər. Eyni zamanda, onlar regionda sülh, sabitlik və rifahın yaradılması istiqamətindəki səylərə qoşulmalıdırlar".**

# Vüqar Rəhimzadə: Ölkəmizin uğurlu inkişafı anti-Azərbaycan qüvvələrin və "5-ci kolon"un çirkin kampaniyasına tutarlı cavabdır

Azərbaycanın iqtisadi möcüzələr, ən islahatçı, xoşbəxt ölkə kimi tanınması və nüfuz qazanması düşünülmüş və gələcəyə hesablanmış siyasətin nəticəsidir. Son 15 ildə təkmilləşməni, yeniləşməni dövlət siyasətinin əsas xətti kimi qəbul edib, bu istiqamətdə davamlı addımlar atan dövlətimizin başçısı İlham Əliyevin məqsədi ondan ibarətdir ki, Azərbaycanın bütün sahələrdə təcrübəsi nümunə olmalıdır. Son 15 ilin sosial-iqtisadi göstəricilərinə, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və roluna, demokratik dəyərlərin qorunması və inkişaf edirilməsi istiqamətində atılan addımlara və uğurlu nəticələrə diqqət yetirsək, ölkəmizin bu hədəfə yüksək səviyyədə nail olduğunu görərik.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə xarici anti-Azərbaycan qüvvələrin və onlara dəstək funksiyasını yerinə yetirən daxili bədxahlarımızın - "5-ci kolon"un çirkin kampaniyasına münasibət bildirərkən söyləyib.



Vüqar Rəhimzadə qeyd edib ki, iqtisadi müstəqilliyin siyasi müstəqilliyin əsası olduğunu nəzərə alsaq, bu gün Azərbaycanın iqtisadi imkanlarının artması fonunda beynəlxalq aləmdə yerinin və rolunun hansı səviyyədə olduğunu geniş təhlil etməyə ehtiyac yaranmaz: **"Azərbaycan öz müstəqil siyasəti ilə regionun və dünyanın aparıcı qüvvəsinə, əsl söz sahibinə çevrilib. Azərbaycanla ikitərəfli əməkdaşlıqda maraqlı olan ölkələrin sayı artmaqda, bir sözlə, dövlətimiz yeni dostlar qazanmaqdadır. Bu uğurlarımızı şərtləndirən əsas amil dövlətimizin xarici siyasətinin qarşılıqlı hörmət və maraqlar prinsipinə söykənməsi, beynəlxalq hüququn norma və prinsiplərini öndə saxlamasıdır. Məhz bunun nəticəsidir ki, dünyanın yeni siyasəti məhz ölkəmizdə müzakirə olundu. Ötən ay Azərbaycanın ev sahibliyi etdiyi, 55 ölkədən 500-dən çox nümayəndənin qatıldığı VII Qlobal Bakı Forumu "Dünyanın yeni xarici siyasəti" mövzusunu müzakirə etməklə, 27 ildən artıq müstəqillik tarixinə malik Azərbaycanın bu sahədə də təcrübəsinin nümunə olduğunu göstərdi. Azərbaycanla Avropa İttifaqı, quruma üzv olan ölkələr arasında da əlaqələrin bugünkü səviyyəsi ölkəmizin artan beynəlxalq nüfuzuna işarədir. Ötən il Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlığın prioritetləri" sənədi imzalandı, yaxın günlərdə isə strateji tərəfdaşlıq sazişinin yekun mərhələsi başa çatacaq. Bu, Azərbaycanın Avropa üçün önəmini bir daha təsdiqləyir. Bu il Azərbaycan dünyanın 120-dən artıq ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədrlik edəcək. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, ölkəmiz 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu kimi mühüm hadisələr Azərbaycana inamın, ölkəmizin ədalətli mövqeyinə dəstəyin göstəricisi, diplomatiyamızın uğurudur. Bu uğurlara yol açan əsas amil isə sabitlikdir ki, onun da əsas təminatçısı xalq-iqtidar birliyidir".**

Vüqar Rəhimzadə qeyd edib ki, Fransanın "Opinion Way" şirkətinin bu yaxınlarda keçirdiyi sorğu dövlətimizin başçısı İlham Əliyevin reallaşdırdığı siyasətə, təkmil islahatlara xalqın dəstəyinin, həmçinin bu və ya digər sahələrdə uğurlarımızın təqdimatı kimi dəyərləndirilir: **"Sözsüz ki, xalqın öz Prezidentinə inamının böyük olduğu ölkədə davamlı inkişaf, xoş ab-hava, ruh yüksəkliyi inkaredilməzdir. Uğurlarımıza qısa baxış daxili və xarici anti-Azərbaycan qüvvələrin çirkin kampaniyalarının nə qədər əsassız olduğunu açıqlayır. Bu, danılmaz faktdır ki, Azərbaycanın müstəqil siyasətindən, davamlı uğurlarından narahatlıq xarici anti-Azərbaycan qüvvələrin əsassız təbliğat kampaniyalarına səbəb olur. Amma hər bir cəhdləri reallıqlarımız fonunda uğursuzluğa düçar olmağa məhkumdur. Diqqət çəkən əsas məqam isə bu ünsürlərin daxili bədxahlarımızdan öz çirkin niyyətlərini həyata keçirmələrində bir vasitə kimi bəhrələnmələridir. Xarici anti-Azərbaycan qüvvələr, onlara xidmət edən "Trensparency İnternational", "Amnisty İnternational", OCCRP və digər bu kimi qurumlar ölkəmiz, dövlətimizin başçısı və Onun ailə üzvləri haqqında yalan, böhtan, dezinformasiya xarakterli məlumatlar yayır, Azərbaycanın beynəlxalq nüfuzuna kölgə salmağa çalışırlar. Bu kimi çirkin kampaniyaların daha çox hansı vaxtlarda həyata keçirildiyi məlum olaylardandır. Nəzərə alsaq ki, yaxın günlərdə Azərbaycanla Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sazişi ilə bağlı işlər tamamlanacaq, bu, artıq həmin qüvvələri belə ənənəvi yollarını davam etdirməyə sövq edir. Həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi də belə narahatlıqların artmasında rol oynayır".**

Baş redaktor bir daha vurğulayıb ki, ölkəmizə qarşı aparılan belə çirkin və ədalətsiz kampaniyalara tutarlı cavab reallıqlarımızdır. Ən yüksək zirvələri fəth edən, hər bir sahədə beynəlxalq səviyyəli tədbirlər üçün ideal məkan seçilən, ən əsası ədaləti əsas meyar kimi qəbul edən Azərbaycana beynəlxalq baxış artdıqca bu kimi cəhdlər də çoxalır. Lakin belə əsassız kampaniyalar heç bir təsir imkanına malik deyil, əksinə, Azərbaycan daha da qüdrətlənir, güclənir, davamlı uğurlara imza atır.

# Ekspert: Ölkəmizin uğurları erməni lobbisini, anti-Azərbaycan qüvvələri və daxildəki "5-ci kolon"u ciddi narahat edir

Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət bilavasitə Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edir. Əldə edilən siyasi, iqtisadi nailiyyətlər ölkəmizin gücünün, qüdrətinin göstəricisidir.

Bu fikirləri AZƏRTAC-a "Səs" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev söyləyib. O deyib ki, artıq neçə illərdir Azərbaycan dövlətinə qarşı müxtəlif şəkildə təxribatlar törətməyə cəhdlər göstərən dairələr hər dəfə uğursuzluğa düçar olduqdan sonra daha da aqressivləşirlər. Lakin bu aqressivlik onların reallıqlar qarşısındakı məğlubiyyətlərinin göstəricisidir. Son 15-16 ildə Azərbaycanın iqtisadi cəhətdən özünü təmin edən ölkə olaraq təsdiq etməsi, bir sıra mühüm strateji əhəmiyyətli layihələrin icraçısı və təşəbbüskarı olaraq dünya arenasına çıxması, həmçinin xalqın maraqlarını ən yüksək səviyyədə təmin etməsi məlum qüvvələri ciddi şəkildə narahat edir. Artıq Azərbaycan dövləti müxtəlif beynəlxalq tribunalarda söz sahibi olaraq ardıcıl siyasətini aparır. Azərbaycan bu ildən etibarən 120-dən çox ölkəni bir araya gətirən Qoşulmama Hərəkatına rəhbərlik edəcək. Bu mənada, yalnız Azərbaycan xalqı deyil, eyni zamanda, nüfuzlu beynəlxalq təşkilatlar da Prezident İlham Əliyevə böyük rəğbətlərini göstərirlər. Reallıq budur ki, əgər bu gün Azərbaycan dövlətinin və Prezidentinin əldə etdiyi uğurlar işğalçı Ermənistanı narahat edirsə, deməli, bu gün dünyanın müxtəlif ölkələrinə səpələnmiş erməni lobbisi hərəkətə keçir, bu uğurlara kölgə salmaq, təxribat xarakterli əməllər törətmək üçün əllərində olan bütün vasitələrdən yararlanmağa çalışırlar.

Bəhruz Quliyev bildirib ki, "5-ci kolon" kimi tanınan sapı özümüzdən olan baltalar - radikal və dağıdıcı təfəkkürə malik müxalifət və "Trensparency International", "Amnisty International", OCCRP kimi təşkilatlar erməni lobbisinin alətləri qismində ölkəmiz əleyhinə istifadə olunurlar. O cümlədən bir sıra Qərb media qurumları dezinformasiya xarakterli informasiyalarla Azərbaycan həqiqətlərini gizlədərək, böyük və ağ yalanları dünya ictimaiyyətinə sırımağa çalışırlar. Əlbəttə ki, Azərbaycanı tanıyan, bu ölkədəki demokratik, multikultural, tolerant mühiti, sabitliyi qiymətləndirən heç bir dairə belə dezinformasiyalara uymur. Ancaq bu, o demək deyil ki, dövlətimizin maraqlarına qarşı düşmənçilik, təxribatçılıq mövqeləri sərgiləyənlərə qarşı mübarizə aparmaq olmaz. Hər bir vətənsevər öz reaksiyasını göstərməli, qəti mübarizəsini aparmalıdır. Çünki bizim məqsədimiz dövlətimizin daha da güclənməsi üçün səylə çalışmaq, Prezident İlham Əliyevin uğurlu siyasətini dəstəkləməkdir. Bəlli qüvvələr anlamağa məhkumdurlar ki, heç bir təzyiq, təhdid dövlətini, Vətənini, Prezidentini sevən azərbaycanlını geri çəkə bilməyəcək, bədxahlar layiqli cavablarını hər zaman alacaqlar.

**"Son zamanlar Avropa İttifaqı ilə Azərbaycan arasında saziş layihəsi ətrafında da bənzər təxribatların baş verdiyini görürük",** - deyən siyasi ekspert əlavə edib ki, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və yeni sazişlə bağlı aparılan danışıqlar da təcavüzkar Ermənistanı təlaşa salır. Sirr deyil ki, Ermənistan indi də Avropa İttifaqına üzv dövlətlər arasında olan havadarları vasitəsilə bu sazişə zərbə vurmağa cəhdlər



göstərir. O cümlədən işğalçı ölkə ilə həmrəy olan məlum antimilli ünsürlər də bu sazişə qarşı çıxırlar. Bu, o deməkdir ki, özlərini "demokrat" adlandıran dağıdıcı müxalifət liderləri birbaşa ermənilərlə eyni mövqedən çıxış etdiklərini etiraf edirlər. Həmin sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunması müddəası da yer alıb. Əgər təxribatçı qaragüruhçular bunu da dərk etmirlərsə, deməli, ermənilərin işğalçılıq siyasətlərini dolayısı ilə təsdiq edirlər. Məgər bundan artıq sübuta ehtiyac varmı? Ermənilərlə eyni mövqeni bölüşən radikal müxalifət Azərbaycan dövlətinə və xalqına qarşı nə qədər düşmən kəsildiyini bu addımları ilə sübuta yetirir.

Bəhruz Quliyev bildirib ki, bu cür çirkin siyasi oyunbazlıqlar heç vaxt həyata keçməyəcək, çünki bu oyunbazlıqlar keçmişdə də çox ciddi iflasa uğrayıb. Ona görə, Azərbaycan xalqı və dövləti haqq-ədalət yolu ilə inamla addımlamağa davam edəcək, əldə edilən siyasi, iqtisadi, sosial uğurlar istər düşmənlərimizi, istərsə də onların dəyirmanlarına su tökən təxribatçı "5-ci kolon" təmsilçilərini daha ağır məğlubiyyətlərə sürükləyəcək. Bundan əmin ola bilərlər.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Azərbaycanın regionlarında əhalinin su təchizatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır

*İndiyədək bölgələrdə rayon mərkəzləri ilə yanaşı 1050 kənd və qəsəbənin içməli su problemi öz həllini tapıb*



Ölkəmizdə geniş vüsət alan müasir infrastruktur quruculuğu həmçinin regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi baxımından böyük əhəmiyyət daşıyan su və kanalizasiya təchizatı sisteminin yenilənməsini də əhatə edir. Son illərdə respublikanın bölgələrində Prezident İlham Əliyevin Azərbaycan vətəndaşlarının fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq bir sıra mühüm layihələr icra edilib. O cümlədən reallaşdırılan içməli su layihələri çərçivəsində məhsuldarlığı sutkada 1,6 milyon kubmetrdən çox olan 39 yeni içməli su mənbəyi istismara verilib. Oğuz-Qəbələ-Bakı su kəməri, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi, Mingəçevir, Quba, Xanbulan sutəmizləyici, Külüllü, Qızılqaya, Göygöl suqəbuledici qurğuları, Şirvan-Muğan, Sabirabad-Saatlı qrup su kəmərləri və bu kimi digər layihələr Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsinə, onların sağlamlığının qorunmasına verilmiş mühüm töhfədir. İndiyədək su təchizatı layihələrinin icrasına başlanılan 49 şəhər və rayon mərkəzinin 38-də su şəbəkələrinin tikintisi başa çatdırılıb. O cümlədən rayon mərkəzləri ilə yanaşı, əhalisinin sayı 1 milyon 400 min nəfər olan 1050 kənd və qəsəbənin içməli su problemi öz həllini tapıb.

Ölkəmizdə 2004-cü ildən uğurla reallaşdırılan regional inkişaf proqramları çərçivəsində bölgələrdə 11 min km-dən çox magistral və paylayıcı su, 6 min km kanalizasiya xətləri çəkilib. Görülmüş işlərin real nəticəsi olaraq mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunan əhalinin sayı 2 dəfə, fasiləsiz su alanların xüsusi çəkisi isə 4,8 dəfə artıb. Beləliklə, hazırda ölkə üzrə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) tərəfindən xidmət göstərilən əhalinin 69 faizi, regionlarda isə 44 faizə yaxını fasiləsiz içməli su ilə təmin olunur. Perspektivdə hazırda icrası davam etdirilən yeni layihələrin tamamlanması sayəsində ölkə üzrə fasiləsiz və keyfiyyətli su ilə təminat səviyyəsi daha da yüksələcək.

## TƏKCƏ 2018-Cİ İLDƏ ÖLKƏ ÜZRƏ 1162 KM İÇMƏLİ SU, 335 KM KANALİZASİYA KOLLEKTORU VƏ XƏTTİ TİKİLƏRƏK İSTİFADƏYƏ VERİLİB

Əlamətdar haldır ki, respublikamızda digər infrastruktur layihələri kimi, su və kanalizasiya layihələrinin icrası da ildən-ilə daha da intensivləşir. Bu baxımdan 2018-ci il də istisna təşkil etməyib. Bütövlükdə ötən il içməli su təchizatı və kanalizasiya sektorunda görülmüş işlərin əhatə dairəsi daha da genişlənib. Belə ki, 2018-ci ildə yeni iqtisadi şəraitin çağırışlarına uyğun olaraq əvvəlki illərdə başlanılmış layihələr üzrə işlər davam etdirilməklə yanaşı, yeni layihələrin icrasına da start verilib. Ötən il Prezident İlham Əliyevin iştirakı ilə Xaçmaz və Xızı şəhərlərində, həmçinin Altıağac qəsəbəsində su və kanalizasiya şəbəkələri, Mingəçevir və Astara şəhərlərində isə içməli su şəbəkələri istismara verilib. Eyni zamanda Ağcabədi və Daşkəsən şəhərlərində su və kanalizasiya, Biləsuvar şəhərində kanalizasiya şəbəkələrinin tikintisi işləri yekunlaşıb. Ötən il dövlət başçısı Mingəçevir, Tovuz, Ağstafa, Şirvan, Lerik, Ağdaş və Qəbələ şəhərlərinin içməli su təchizatının yaxşılaşdırılması işlərinin davam etdirilməsi ilə bağlı müvafiq sərəncamlar imzalayıb. Bu sərəncamlar çərçivəsində həm yeni su mənbələrinin yaradılması, həm də şəbəkə infrastrukturunun genişləndirilməsi işləri həyata keçirilib. İl ərzində qlobal istiləşmə və quraqlıq nəticəsində bəzi su mənbələrinin məhsuldarlığında baş vermiş dəyişikliklər nəzərə alınaraq Şamaxı, Gədəbəy, Lerik və Tovuz şəhərləri üçün alternativ mənbələrin yaradılması kimi çox vacib layihələr reallaşdırılıb. Ümumilikdə 2018-ci ildə 1162 km içməli su, 335 km kanalizasiya kollektoru və xətti, 8 su anbarı tikilib, 26 ədəd subartezian quyusu qazılıb. Həyata keçirilən bütün layihələrdə keyfiyyət və istehlakçı məmnunluğunun təmin edilməsi kimi amillərə xüsusi diqqət yetirilib.

## KƏND YAŞAYIŞ YERLƏRİNDƏ MÜASİR SU TƏCHİZATI SİSTEMLƏRİ QURULUR

Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanlarla təsdiqlənən regional inkişaf proqramları çərçivəsində həmçinin içməli sudan əziyyət çəkən kəndlərin də problemləri mərhələli şəkildə həllini tapır.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov KİV-ə müsahibəsində bildirib ki, bu sahədə işlər bir neçə istiqamətdə davam etdirilir. **"İlk növbədə, içməli su çatışmazlığının kəskin müşahidə olunduğu yaşayış məntəqələri müəyyənləşdirilir. Qeyd edim ki, bəzi kənd və qəsəbələr şəhərlərdə həyata keçirilən layihələr çərçivəsində içməli su ilə təmin olunur. Amma elə kəndlər də vardır ki, onlar şəhər mərkəzlərindən, su mənbələrindən və magistral xətlərdən uzaq məsafədə yerləşir. Bu halda həmin kəndlər üçün xüsusi layihələr icra olunur. Qaçqın və məcburi köçkünlərin, sərhəd bölgəsində yerləşən kəndlərin içməli su təchizatının yaxşılaşdırılmasını xüsusi diqqətdə saxlayırıq. Bilirsiniz ki, su mənbələrimizin bir hissəsi işğal altındadır. Biz vaxtilə həmin mənbələrdən qidalanan kəndlərə indi alternativ mənbələrdən içməli suyun verilməsinə çalışırıq",** - deyə Q. Hüseynov vurğulayıb.

"Azərsu" ASC-nin rəsmisi bildirib ki, son illərdə kənd yaşayış məntəqələrinin içməli su ilə təmin olunması istiqamətində işlər intensivləşib. Prezident İlham Əliyevin 17 mart 2017-ci il tarixli və 9 aprel 2018-ci il tarixli sərəncamlarına, eləcə də dövlət investisiya proqramı çərçivəsində reallaşdırılan layihələrə uyğun olaraq son 2 ildə içməli sudan ciddi əziyyət çəkən 211 kənddə işlər görülüb. Bu işlər çərçivəsində 900 km magistral və paylayıcı su xətləri çəkilib, əhalinin ümumi istifadəsi üçün 2500 bulaq quraşdırılıb. Bununla da, 330 min insanın keyfiyyətli içməli suya çıxışı təmin edilib. **"Qeyd edim ki, bu kəndlərdə su təchizatı ümumi istifadə əsasında bulaqlar vasitəsilə aparılır və istifadə olunan suya görə əhalidən ödəniş tələb olunmur. Bu da ölkə Prezidentinin müəyyən etdiyi sosial siyasətin tərkib hissəsidir. Ötən ilin mart ayından regionlarda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin balansında olan modul tipli sutəmizləyici qurğular "Azərsu"nun xidmətinə verilib. Beləliklə də, xidmət göstərdiyimiz yaşayış məntəqələrinin və abonentlərimizin sayı əhəmiyyətli dərəcədə artıb. Həm kəndlərin, həm də yeni layihələrdən faydalanan əhalinin sayı görülmüş işlərin miqyasını təsəvvür etməyə imkan verir. Kənd əhalisinin içməli suya çıxış imkanlarını artırmaq üçün layihələrin icrası perspektivdə də davam etdiriləcək",** - deyə Q.Hüseynov bildirib.

## ŞƏKİDƏ YENİ SU LAYİHƏSİNDƏN 79 MİN SAKİN FAYDALANACAQ

Qədim tarixə və böyük turizm potensialına malik Şəki şəhərində əhalinin içməli su təchizatı və tullantı sularının axıdılması xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən layihənin icrası sürətləndirilib. Regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət Proqramı çərçivəsində həyata keçirilən layihənin növbəti mərhələsində yeni subartezian quyuları qazılacaq, içməli və tullantı su şəbəkələri tikiləcək. Layihənin icra vəziyyəti və görüləcək işlər Şəki şəhərində keçirilmiş təqdimatda geniş müzakirə olunub.

Şəki Şəhər İcra Hakimiyyətinin, "Azərsu" ASC-nin, məsləhətçi və podratçı şirkətlərin nümayəndələrinin iştirak etdiyi tədbirdə layihənin məqsədi, faydası, tikinti-quraşdırma işlərinin icra qrafiki, ekoloji əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov bildirib ki, bu layihə əhalinin sosial rifahının yüksəldilməsi, həyat şəraitinin yaxşılaşması və məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

"Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov Prezident İlham Əliyevin əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılmasını daim diqqətdə saxladığını xatırladaraq Şəki şəhərində layihənin birinci mərhələsi üzrə işlərin uğurla yekunlaşdığını vurğulayıb.

Təqdimat zamanı məlumat verilib ki, "Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" Azərbaycan hökuməti və Almaniya İnkişaf Bankının (KFW bankı) birgə maliyyələşdirdiyi "II Açıq Kommunal İnfrastruktur Proqramı" çərçivəsində həyata keçirilir. Layihənin icrasından 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla 79 min nəfər faydalanacaq.

Layihənin birinci mərhələsində əhalini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək üçün Kiş mənbəyində sugötürücü qurğu və 13 su anbarı inşa edilib. Eyni zamanda şəhər ərazisində 124 km içməli su və 98 km kanalizasiya şəbəkəsi yaradılıb. Yeni tikilmiş şəbəkədən abonentlərə ev birləşməsi verilərək sayğaclar quraşdırılıb.

Şəki şəhərinin böyüməsi, əhali artımı və turizm potensialı nəzərə alınaraq içməli suya olan tələbatın tam ödənilməsi üçün 15 yeni subartezian quyusu qazılacaq. Artezianların dayanıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə generator stansiyası quraşdırılacaq. Su mənbəyi ilə anbarların əlaqələndirilməsi məqsədilə ümumi uzunluğu 4 km olan toplayıcı su kəmərləri inşa ediləcək.

Şəhər ərazisində içməli su və tullantı su şəbəkələrinin də tikintisi davam etdiriləcək. Cari ildə 30 km içməli su və 30 km kanalizasiya şəbəkələri inşa olunacaq. Yeni yaradılan şəbəkədən abonentlərə birləşmə verilərək sayğaclar quraşdırılacaq. Layihə çərçivəsində "Şəki Sukanal" TSC üçün müasir tipli yeni inzibati bina tikiləcək.

Layihəyə əsasən, ümumilikdə Şəki şəhərində 22 min kubmetr tutumu olan 21 su anbarının, 314 km içməli su və 294 km tullantı su şəbəkələrinin tikintisi nəzərdə tutulur. Tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə ilkin mərhələdə məhsuldarlığı sutkada 8000 kubmetr olan tullantı su təmizləyici qurğu da inşa ediləcək.

## ŞƏMKİRÇAY SUTƏMİZLƏYİCİ QURĞUSUNDA İŞLƏR YEKUNLAŞMAQ ÜZRƏDİR

Qeyd etdiyimiz kimi, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti regional inkişaf proqramları çərçivəsində bölgələrdə içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı mühüm layihələr həyata keçirir. Şəmkirçay sutəmizləyici qurğusunun inşası da belə layihələrdəndir. Respublikamızın qərb bölgəsində əhalinin etibarlı və dayanıqlı içməli su ilə təminatına hesablanmış Şəmkirçay sutəmizləyici qurğusunda hazırda işlər son mərhələdədir.

**(davamı növbəti sayımızda)**

**Mübariz ABDULLAYEV**

# BDU-nun Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun keçirdiyi beynəlxalq konfransın əsərləri "Clarivate Analytics"də yerləşdirilib







Ötən il iyulun 11-13-də Bakıda keçirilmiş VI Beynəlxalq "Sənaye Tətbiqli İdarəetmə və Optimallaşdırma" (COIA-2018) konfransının əsərləri dünyanın ən böyük elmi-analitik informasiya bazalarından olan "Clarivate Analytics"in saytında (keçmiş "Tomson Reyter" agentliyi) yerləşdirilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, fəxri sədri Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə olan konfrans Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi, Bakı Dövlət Universitetinin (BDU) Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə baş tutmuşdu.

Konfransın əsərlərindən ibarət kitabdakı 220 məqalədən 73-ü Bakı Dövlət Universitetinin, o cümlədən 20-si BDU-nun Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun alimlərinə məxsusdur.

Əsərlərin redaktorları akademik Fikrət Əliyev və ABŞ-ın İllinois Universitetinin professoru Tamer Başardır.

Qeyd edək ki, seçilmiş genişhəcmli məqalələr Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda çap olunan Azərbaycanın yeganə İSİ İmpakt Faktorlu (2.365) "Applied and Computational Mathematics" beynəlxalq jurnalında nəşr ediləcək.

"İmpakt Faktor" elmi jurnallarda dərc olunan akademik məqalələrin əhəmiyyətinə və beynəlxalq elmi ictimaiyyət tərəfindən həmin nəşrə olan istinad sayına görə təqdim edilir.

Xatırladaq ki, artıq ənənə halını almış bu konfrans Bakıda dördüncü dəfə təşkil olunmuşdu. Beynəlxalq tədbirdə Türkiyə, Böyük Britaniya, İspaniya, Rusiya, Meksika, Ukrayna, İran, Hindistan, Şimali Kipr Türk Respublikası, Pakistan, Gürcüstan, Bolqarıstan, Küveyt və digər ölkələrdən gəlmiş 250-dək alim və tədqiqatçı iştirak etmişdi.

# UNEC alimlərinin dünya elminə töhfəsi




Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradovun, UNEC-in İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru, professor Yadulla Həsənlinin və UNEC Biznes Məktəbinin direktoru, dosent Nazim Hacıyevin "Neftin dünya bazar qiyməti: təsir edən amillər və proqnozlaşdırma" kitabı dünyanın tanınmış nəşriyyat evi və elmi nəşrlərin sosial-iqtisad və təbiət elmləri (SENSE) sahəsində resenziyalı yüksək kateqoriyalı "Springer" nəşriyyatı tərəfindən çap olunub.

UNEC-dən AZƏRTAC-a bildirilib ki, kitabın elmi redaktoru Harvard Biznes Məktəbinin professoru Ravi Abdelal və Milli Məclisin iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə, elmi rəyçiləri isə SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə və AMEA-nin İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nin müxbir üzvü, İspaniya Kral Akademiyasının akademiki Qorxmaz İmanovdur.

Kitabda qlobal iqtisadiyyatda baş verən yeni tendensiyalar və çağırışlar fonunda mühüm strateji əhəmiyyət daşıyan xam neftin dünya bazarlarında qiymətinə təsir edən amillər yer alıb. Həmçinin 2020-ci ilə qədər neftin dünya bazar qiyməti və ilk dəfə Azərbaycan neftinin dünya bazar qiymətinin orta və uzunmüddətli dövr üçün elmi və praktik baxımdan əsaslandırılmış proqnozuna imkan verən ekonometrik (ARIMA, Trend və Hibrit) modellər verilib.

# "France-24" kanalının saytında Naftalan nefti haqqında məqalə verilib

Fransanın nüfuzlu "France-24" televiziya kanalının saytında müalicəvi Naftalan nefti haqqında "Azərbaycanda neft sağlamlıq deməkdir" sərlövhəli məqalə verilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın şimal-qərbində yerləşən Naftalan şəhərinin neftdən müalicə məqsədləri üçün istifadəyə görə məşhur olması barədə məlumat verilir. Müəllif poliartrit, artrit xəstəliklərindən əziyyət çəkən insanların müalicə məqsədilə Naftalana getdiklərini, buraya üz tutanların 10 günlük müalicədən sonra dərmandan istifadəni kifayət qədər azaltdıqlarını və özlərini əla hiss etdiklərini vurğulayır.

Məqalədə bildirilir ki, bu qeyri-adi kurort məkanı Qafqazda, Dağlıq Qarabağ ərazisindən bir neçə kilometr aralıda yerləşir.




Yazıda Azərbaycanın iqtisadiyyatında neft ixracının vacib rol oynadığı vurğulanır. Müəllif qeyd edir ki, neftin beşiyi olan Azərbaycanda qara qızılın kəşfi XIX əsrin ortalarına gedib çıxır. Naftalan nefti nadir xüsusiyyətləri ilə tanınır və bu, şəhəri əsas müalicə mərkəzlərindən birinə çevirir. İnsanlar buradan çox razılıq edirlər və hazırda şəhərdə xəstəliklərdən əziyyət çəkən pasiyentlərə məxsus əşyaları əks etdirəcək muzey tikilir. Ötən əsrin 80-ci illərində Naftalan ildə 70 min pasiyent qəbul edib. İllər keçdikcə sanatoriyada müalicə metodları təkmilləşdirilir.

# "Nar" korporativ müştərilərinə ödənişsiz MiFi cihazını təqdim edir




Ölkənin ən gənc və innovativ mobil operatoru "Nar", təqdim etdiyi yüksəkkeyfiyyətli şəbəkə, sürətli və kəsintisiz internet xidmətləri, sərfəli təklifləri ilə sahibkarlara dəstək olmağa və onların biznes tələblərini ödəməyə davam edir. Belə ki, "Nar"-ın korporativ müştərisinə çevrilən hər bir biznes sahibi ödənişsiz olaraq portativ internet daşıyıcısı olan "Nar MiFi" cihazı əldə edə biləcək. Bu cihaz abunəçilərə olduqları yerdən asılı olmayaraq hər zaman onlayn olmağa və interneti ətrafdakılarla paylaşmağa imkan verir. Eləcə də, cihazın kiçik ölçüləri və yüngüllüyü onun daşınmasını asanlaşdırır ki, bu da abunəçilərə bizneslərini daha çevik və mobil idarə etməyə kömək edir.

Mobil operator korporativ müştərilərilə yeni imkanlar, təkliflər barədə məlumatları bölüşmək, eləcə də əlaqələri gücləndirmək məqsədilə, növbəti dəfə 100-ə yaxın şirkətdən 250-yə qədər korporativ müştərisini film nümayişində bir araya gətirib. Filmdən sonra iştirakçılar arasında lotoreya keçirilib və qalib müştərilərə "Nar" tərəfindən xüsusi hədiyyələr verilib.

Bu ildən mobil operatorun korporativ müştəriləri üçün mövcud olan tarif paketlərində dəyişikliklər olub və yeni tariflər təqdim edilib. Tariflər hər bir müştərinin ehtiyacına uyğun tənzimlənir və fərdi yanaşma sayəsində biznes sahiblərinə ən optimal təklif təqdim edilir. Bundan başqa, korporativ müştərilər üçün yeni internet və rominq paketləri və beynəlxalq zənglər üçün bonuslar təqdim edilir. Qeyd edək ki, "Nar"-ın biznes sahibləri üçün təqdim etdiyi sərfəli təkliflər sayəsində müştərilərinin sayı artmaqdadır. Son 1 ildə mobil operatorun korporativ müştəriləri sırasına daha 600 yeni şirkət qoşulub.

"Nar" ilə korporativ tərəfdaşlıq üçün 777 telefon nömrəsi və ya business-nar@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Daha ətraflı buradan tanış ola bilərsiniz.


**ELAN**

"Təbəssüm" firması nizamnamə kapitalında təsis paylarını azaldacağını elan edir.



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 4837**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU